# İnvestisiya fondları haqqında

# Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikasında investisiya fondlarının təşkili, idarə edilməsi və ləğvinin prinsip və qaydalarını, habelə investisiya fondu fəaliyyəti sahəsində dövlət tənzimlənməsinin və nəzarətinin hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

## I fəsil

## Ümumi müddəalar

### Maddə 1. Əsas anlayışlar

1.1. Bu Qanunda istifadə olunmuş əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **investisiya fondu** – səhmdar və ya paylı investisiya fondu formasında yaradılan, vəsaitlərin cəlb edilib mənfəət əldə edilməsi məqsədi ilə investisiya bəyannaməsində nəzərdə tutulmuş qaydada yatırılması ilə məşğul olan maliyyə qurumudur;

1.1.2. **səhmdar investisiya fondu** - səhmdar investisiya fondu fəaliyyəti üçün xüsusi razılığa (lisenziyaya) malik olan, fəaliyyətinin müstəsna predmeti səhmlərinin yerləşdirilməsindən əldə edilən pul vəsaitlərinin investisiya bəyannaməsi ilə nəzərdə tutulmuş qaydada qiymətli kağızlara və digər əmlaka yatırılmasından mənfəət əldə edilməsi olan açıq səhmdar cəmiyyətidir;

1.1.3. **paylı investisiya fondu** - ümumi paylı mülkiyyət hüququ əsasında investisiya fond paylarının sahiblərinə məxsus və investisiya fondunun idarəçisinin idarəetməsində olan əmlak toplusudur. Paylı investisiya fondu hüquqi şəxs statusuna malik deyil və onun aktivləri paylarının satışından daxil olan pul vəsaitlərindən, həmin vəsaitlərin investisiyası nəticəsində əldə olunan digər aktivlərdən ibarətdir. Paylı investisiya fondu açıq, qapalı və interval formada yaradıla bilər;

1.1.4. **açıq paylı investisiya fondu** – paylarının satışını və geri satınalınmasını həftədə bir dəfədən az olmamaq şərti ilə həyata keçirən və aktivləri yalnız pul vəsaitləri və qiymətli kağızlardan ibarət olan paylı investisiya fondudur;

1.1.5. **interval paylı investisiya fondu** – paylarının satışını və geri satınalınmasını ildə bir dəfədən az olmamaq şərti ilə həyata keçirən və aktivləri yalnız pul vəsaitləri və qiymətli kağızlardan ibarət olan paylı investisiya fondudur;

1.1.6. **qapalı paylı investisiya fondu** – paylarının satışını və geri satın alınmasını fondun fəaliyyət müddətinin sonunda, bu Qanunun 18.6-cı maddəsi ilə müəyyən edilmiş qaydada həyata keçirən və aktivləri yalnız pul vəsaitləri, qiymətli kağızlar və daşınmaz əmlakdan ibarət olan paylı investisiya fondudur;

1.1.7. **investisiya fond payı** (bundan sonra - pay) - öz sahibinin paylı investisiya fondunda payına müvafiq mülkiyyət hüquqlarını təsdiq edən, paylı investisiya fondu ləğv edildikdən sonra fondun aktivlərinin satışından payına müvafiq pul vəsaitlərini almaq hüququnu, habelə bu Qanunla və müvafiq normativ hüquqi aktlarla nəzərdə tutulmuş digər hüquqları verən sənədsiz adlı qiymətli kağızdır;

1.1.8. **investisiya bəyannaməsi** – investisiya fondunun investisiya qoyuluşu məqsədlərini, istiqamətlərini, obyektlərini və investisiya fəaliyyəti üzrə məhdudiyyətlərini əks etdirən sənəddir;

1.1.9. **aktivlərin idarə edilməsi** – müstəsna predmeti müştəriyə məxsus olub, idarəçiliyə verilmiş pul vəsaitləri, qiymətli kağızlar və qanunvericiliklə müəyyən edilmiş digər əmlakla müştərinin və ya onun göstərdiyi üçüncü şəxsin mənafeyi üçün əməliyyatların aparılmasından ibarət olan qiymətli kağızlar bazarında peşəkar fəaliyyətdir;

1.1.10. **investisiya fondunun idarəçisi** (bundan sonra - idarəçi) – müstəsna olaraq aktivlərin idarə edilməsi fəaliyyəti ilə məşğul olan və bu fəaliyyət növü üzrə xüsusi razılığa (lisenziyaya) malik hüquqi şəxsdir;

1.1.11. **investisiya fondunun depozitarı** (bundan sonra - depozitar) - depozitar fəaliyyətinin həyata keçirilməsi üzrə xüsusi razılığa (lisenziyaya) malik olan qiymətli kağızlar bazarının peşəkar iştirakçısıdır;

1.1.12. **investisiya fondunun xalis aktivlərinin dəyəri** - fondun aktivləri ilə öhdəlikləri arasındakı fərqin pulla ifadəsidir;

1.1.13. **paylı investisiya fondunun idarə edilməsi haqqında müqavilə** - idarəçi ilə bağlanılan, şərtləri idarəçi tərəfindən paylı investisiya fondunun idarə edilməsi qaydalarında müəyyən edilən, investorun payın alınması ilə qoşulduğu razılaşmadır;

1.1.14. **nəzarət orqanı** - investisiya fondlarının fəaliyyəti üzərində dövlət tənzimləməsini və nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanıdır;

1.1.15. **vətəndaş qüsursuzluğu tələbi** – mühüm iştirak payının sahibi, o hüquqi şəxs olduqda onun icra orqanının rəhbəri üçün - qəsdən törədilmiş cinayətə görə məhkumluğun olmaması; səhmdar investisiya fondunda və idarəçidə rəhbər vəzifə tutan şəxslər, əmlak inzibatçısı üçün - məhkumluğun olmaması, mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilməsi faktının olmaması, müvafiq vəzifəni tutması və ya peşə fəaliyyəti ilə məşğul olmağına məhkəmə qərarı ilə qadağanın qoyulmaması, məhkəmə qaydasında müflis elan edilməsi faktının olmamasıdır;

1.1.16. **mühüm iştirak payı** – səhmdar investisiya fondunun və ya idarəçinin nizamnamə kapitalının 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblikdir;

1.1.17. **səhmdar investisiya fondunda və ya investisiya fondunun idarəçisində rəhbər vəzifə** - səhmdar investisiya fondunun və ya investisiya fondunun idarəçisinin idarəetmə orqanlarında (müşahidə şurası, icra orqanı), həmçinin audit komitəsində və ya təftiş komissiyasında üzvlükdür;

1.1.18. **benefisiar** - investisiya fondunun fəaliyyətindən və həyata keçirdiyi əməliyyatlardan son nəticədə iqtisadi və ya hər hansı digər fayda əldə edən fiziki və ya hüquqi şəxs, habelə xeyrinə əqdlərin həyata keçirildiyi hüquqi şəxsin əsl sahibi və ya ona nəzarəti həyata keçirən fiziki şəxsdir;

1.1.19. **nümayəndəlik** - hüquqi şəxs olmayan, investisiya fondunun və ya idarəçinin olduğu yerdən kənarda yerləşən və fəaliyyəti onların mənafelərini təmsil və müdafiə etməklə məhdudlaşdırılan, investisiya fondunun və ya idarəçinin ayrıca bölməsidir;

1.1.20. **ixtisas şəhadətnaməsi** – nəzarət orqanı tərəfindən keçirilən attestasiyada məqbul və ya daha yüksək nəticə əldə etmiş şəxslərə verilən rəsmi sənəddir.

**Maddə 2. İnvestisiya fondları haqqında qanunvericilik**

2.1. Azərbaycan Respublikasında investisiya fondlarının fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, bu Qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

2.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Qanundan fərqli qaydalar müəyyən edildikdə, beynəlxalq müqavilələrin normaları tətbiq edilir.

2.3. Bu Qanun, dövlətin investisiya siyasətinin həyata keçirilməsi üçün dövlət tərəfindən yaradılmış hüquqi şəxslərə və onların təsis etdiyi qurumlara şamil olunmur.

2.4. İnvestisiya fondları dövlətin, dövlət isə investisiya fondlarının öhdəliklərinə görə məsuliyyət daşımır.

**Maddə 3. İnvestisiya fondunun və İdarəçinin adı**

3.1. Səhmdar investisiya fondunun adında “səhmdar investisiya fondu” sözləri olmalıdır.

3.2. Paylı investisiya fondunun adında “paylı investisiya fondu” sözləri olmalı və fondun açıq, interval və ya qapalı olması göstərilməlidir.

3.3. Azərbaycan Respublikasında “İnvestisiya fondu” sözlərini öz adında yalnız Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmış investisiya fondları, həmin fondlara münasibətdə onların idarəçiləri, habelə müvafiq lisenziyaya malik olan xarici hüquqi şəxslər istifadə edə bilərlər.

3.4. İnvestisiya fondunun və İdarəçinin adında “dövlət”, “milli”, “mərkəzi”, “hökumət”, “zəmanətli” və ya “sığortalanmış” kimi sözlərin işlənməsi qadağandır. İnvestisiya fondunun adı əldə olunan gəlirlərin sığortalanmış və ya zəmanətli olması, habelə investorların məruz qala biləcəyi risklər barədə onlarda yanlış təəssürat yarada biləcək digər sözləri özündə əks etdirməməlidir.

**Maddə 4. İnvestisiya fondlarının dövlət reyestri**

4.1. İnvestisiya fondlarının dövlət reyestri nəzarət orqanı tərəfindən aparılır. Reyestrə investisiya fondlarının adları, hüquqi ünvanları, onlara verilmiş və ləğv edilmiş lisenziyaların qeydiyyat nömrələri və tarixləri, fəaliyyətlərinə xitam verilmiş investisiya fondları haqqında məlumatlar daxil edilir.

4.2. Səhmdar investisiya fondu nəzarət orqanı tərəfindən səhmdar investisiya fondu fəaliyyətinə lisenziyanın verildiyi tarixdən investisiya fondlarının dövlət reyestrinə daxil edilir.

4.3. Paylı investisiya fondu onun idarəedilməsi qaydalarının nəzarət orqanı tərəfindən dövlət qeydiyyatına alındığı tarixdən investisiya fondlarının dövlət reyestrinə daxil edilir.

## II fəsil

## Səhmdar investisiya fondu

### Maddə 5. Səhmdar investisiya fondunun təşkili və fəaliyyəti

5.1. Səhmdar investisiya fondu azı üç hüquqi və (və ya) fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır.

5.2. Səhmdar investisiya fondu nəzarət orqanı tərəfindən verilmiş lisenziya əsasında fəaliyyət göstərir.

5.3. Səhmdar investisiya fondu sahibkarlıq fəaliyyətinin digər növləri ilə məşğul ola bilməz.

5.4. Səhmdar investisiya fondunun nizamnaməsində onun fəaliyyətinin müstəsna predmetinin səhmlərinin yerləşdirilməsi nəticəsində daxil olan pul vəsaitlərinin bu Qanunla və investisiya bəyannaməsi ilə müəyyən edilmiş qaydada yatırılmasından ibarət olduğu göstərilməlidir.

5.5. Səhmdar investisiya fondunun investisiya məqsədləri üçün nəzərdə tutulmuş aktivləri müqavilə əsasında idarəçi tərəfindən idarə edilir.

5.6. Səhmdar investisiya fondu törəmə müəssisələr yarada, adi adlı səhmlərdən başqa digər qiymətli kağızlar buraxa bilməz.

5.7. Səhmdar investisiya fondunun nizamnamə kapitalının minimum miqdarı və onun formalaşdırması qaydaları nəzarət orqanı tərəfindən müəyyən edilir.

5.8. Səhmdar investisiya fondu aktivlərinin 10 faizini keçməyən məbləğdə və üç aydan artıq olmayan müddətə borc götürə bilər.

5.9. Səhmdar investisiya fondunun səhm sahiblərinin reyestri qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan reyestrsaxlayıcı tərəfindən aparılır.

### Maddə 6. Səhmdar investisiya fondunda idarəetmə

6.1. Səhmdar investisiya fondunun səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə qanunvericiliklə nəzərdə tutulmuş səlahiyyətlərdən əlavə aşağıdakılar aiddir:

6.1.1. idarəçinin və ya depozitarın dəyişdirilməsi barədə qərarın qəbul edilməsi;

6.1.2. fondun xərclərinin artırılması barədə qərarın qəbul edilməsi.

6.2. Səhmdarların ümumi yığıncağında iştirak etmək hüququna malik olan şəxslərin siyahısı fondun səhmdarlarının reyestri əsasında müəyyənləşdirilir. Həmin siyahı səhmdarların ümumi yığıncağının keçirilməsi tarixinədək 60 gündən gec və 45 gündən tez olmayan müddətdə tərtib edilməlidir.

6.3. Səhmdarların ümumi yığıncağının çağırılmasına azı 45 gün qalmış bu barədə kütləvi informasiya vasitələri ilə məlumat verilməli, habelə tərtib edilmiş siyahı əsasında səhmdarlara, idarəçiyə, depozitara və nəzarət orqanına yazılı bildiriş göndərilməlidir.

6.4. Səhmdar investisiya fondunda tərkibi tək sayda, azı üç fiziki şəxsdən ibarət olmaqla müşahidə şurası yaradılmalıdır. Müşahidə şurasının üzvlərindən azı biri səhmdar investisiya fondunun aidiyyəti şəxsi olmayan müstəqil şəxs olmalıdır.

6.5. Səhmdar investisiya fondu ilə müvafiq müqavilələr bağlamış idarəçi, depozitar, auditor və qiymətləndirici, habelə onların aidiyyəti şəxsləri və nümayəndələri səhmdar investisiya fondunun müşahidə şurasının üzvü ola bilməz.

6.6. Səhmdar investisiya fondu ilə müvafiq müqavilələr bağlamış idarəçinin, depozitarın, auditorun və qiymətləndiricinin əməkdaşları, habelə onların aidiyyəti şəxsləri səhmdar investisiya fondunun icra orqanının üzvü ola bilməzlər.

6.7. Səhmdar investisiya fondunun idarəetmə orqanlarının səlahiyyətləri, onların qərarları qəbul etmə prosedurları, o cümlədən barəsində qərarların yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qəbul edildiyi məsələlər səhmdar cəmiyyətlərə dair müvafiq qanunvericiliklə tənzimlənir.

**Maddə 7. Səhmdar investisiya fondunun səhmlərinin emissiyası**

7.1. Səhmdar investisiya fondunun səhm buraxılışının dövlət qeydiyyatına alınması üçün qanunvericiliklə tələb olunan sənədlərlə yanaşı, aşağıdakı sənədlər təqdim edilir:

7.1.1. səhmdar investisiya fondunun idarəçi və depozitarla bağladığı müqavilələrin surətləri;

7.1.2. səhmdar investisiya fondunun investisiya bəyannaməsi və onun sadələşdirilmiş forması.

7.2. Bu Qanunun 7.1-ci maddəsi ilə nəzərdə tutulmuş sənədlər təqdim edilmədikdə və ya təqdim edilmiş sənədlər qanunvericiliyə zidd müddəaları özündə əks etdirdikdə nəzarət orqanı səhmdar investisiya fondunun səhm buraxılışının və investisiya bəyannaməsinin dövlət qeydiyyatına alınmasından imtina edir.

7.3. Səhmdar investisiya fondunun investisiya bəyannaməsinin sadələşdirilmiş formasına dair tələblər nəzarət orqanı tərəfindən müəyyən edilir.

7.4. Səhmdar investisiya fondunun səhmləri, onun fəaliyyətinə xüsusi razılıq (lisenziya) verildikdən sonra yerləşdirilə bilər.

7.5. Səhmdar investisiya fondunun səhmləri ilə əqdlərdə tərəf müqabili diler olmadıqda, əqdlər broker vasitəsi ilə bağlanılır.

7.6. Səhmdar investisiya fondunun səhmlərinin yerləşdirilməsi dövründə əldə edilən pul vəsaitləri depozitarda açılmış xüsusi hesabda toplanılır və bu müddət ərzində yalnız banklarda depozit şəklində və ya qısamüddətli dövlət qiymətli kağızlarına yerləşdirilə bilər. Həmin vəsaitlərdən yalnız səhmdar investisiya fondunun səhmlərinin emissiyasının yekunları haqqında hesabat dövlət qeydiyyatına alındıqdan sonra investisiya məqsədləri üçün istifadə oluna bilər.

## Maddə 8. Səhmdar investisiya fondunun investisiya bəyannaməsi

8.1. Səhmdar investisiya fondunun investisiya bəyannaməsi fondun təsis yığıncağının qərarı ilə, fond yaradıldıqdan sonra isə fondun nizamnaməsi ilə müşahidə şurasının səlahiyyətlərinə aid edildikdə onun, bu hal olmadıqda isə səhmdarların ümumi yığıncağının qərarı ilə qəbul edilir.

8.2. Səhmdar investisiya fondunun investisiya bəyannaməsində aşağıdakılar göstərilir:

8.2.1. səhmdar investisiya fondunun, idarəçinin, depozitarın və auditorun tam adı və yerləşdiyi ünvan;

8.2.2. qiymətləndiricinin (olduqda) tam adı və hüquqi ünvanı;

8.2.3. investisiya fondunun buraxdığı səhmlərin yerləşdirilməsi üzrə marketinq və satış strategiyası;

8.2.4. fondun investisiya strategiyası, şərtləri, istiqamətləri və sahələri haqqında məlumat;

8.2.5. fondun aktivlərinin diversifikasiyası şərtləri;

8.2.6. investisiyaların həyata keçirilməsi ilə bağlı risklər;

8.2.7. investisiya fəaliyyətinə dair məhdudiyyətlər;

8.2.8. fondun aktivləri hesabına idarəçiyə, depozitara və digər şəxslərə ödəniləcək mükafatların, xərclərin və xidmət haqlarının hesablanma qaydaları və maksimum həcmi;

8.2.9. dividendlərin ödənilməsi qaydası;

8.2.10. fonddan və səhmdarlardan qanunvericiliklə nəzərdə tutulmuş vergilər və onların ödənilməsi qaydası barədə məlumat;

8.2.11. fondun fəaliyyətinə dair məlumatların açıqlanması qaydaları.

8.3. Səhmdar investisiya fondunun investisiya bəyannaməsi onun səhm buraxılışı ilə birgə dövlət qeydiyyatına alınır.

8.4. Nəzarət orqanı səhmdar investisiya fondunun investisiya bəyannaməsinə əlavə məlumatların daxil edilməsi barədə tələblər müəyyən edə bilər.

8.5. Səhmdar investisiya fondu qanunvericiliklə müəyyən edilmiş qaydada səhmlərinin emissiya prospekti ilə yanaşı, investisiya bəyannaməsini də dərc etdirməlidir.

**Maddə 9. Səhmdar investisiya fondunun investisiya bəyannaməsinə əlavə və dəyişikliklər edilməsi**

9.1. Fondun nizamnaməsi ilə müşahidə şurasının səlahiyyətlərinə aid edilmədikdə, səhmdar investisiya fondunun investisiya bəyannaməsinə əlavə və dəyişikliklər səhmdarların ümumi yığıncağı tərəfindən qəbul edilir.

9.2. Səhmdar investisiya fondunun investisiya bəyannaməsinə əlavə və (və ya) dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində nəzarət orqanına təqdim edilməlidir.

9.3. Səhmdar investisiya fondunun investisiya bəyannaməsinə əlavə və (və ya) dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 iş günü ərzində dövlət qeydiyyatına alınır.

9.4. Səhmdar investisiya fondunun investisiya bəyannaməsinə edilmiş əlavə və (və ya) dəyişikliklər qanunvericiliyin tələblərinə zidd olduqda və ya səhmdarların hüquqlarını məhdudlaşdırdıqda, nəzarət orqanı onları dövlət qeydiyyatına almaqdan imtina edir. Bu halda sənəd təqdim olunduğu tarixdən 10 iş günü ərzində səhmdar investisiya fonduna imtinanın səbəbləri göstərilməklə bildiriş göndərilir. İmtinadan inzibati və ya məhkəmə qaydasında şikayət verilə bilər.

9.5. Səhmdar investisiya fondunun investisiya bəyannaməsinə əlavə və (və ya) dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 iş günü ərzində kütləvi informasiya vasitələrində açıqlanır və açıqlandığı tarixdən 30 təqvim günü bitdikdən sonra qüvvəyə minir.

## III fəsil

## Paylı investisiya fondu

### Maddə 10. Paylı investisiya fondunun təşkili və fəaliyyəti

10.1. Paylı investisiya fondu açıq, interval və ya qapalı formada yaradılır.

10.2. Paylı investisiya fondunun yaradılması barədə qərar idarəçi tərəfindən qəbul edilir.

10.3. İdarəçi paylı investisiya fondunun idarə edilməsi qaydalarına müvafiq olaraq fondu təşkil edən bütün əmlak hüquqlarını payçıların xeyrinə həyata keçirir.

10.4. Idarəçi paylı investisiya fondunun əmlakı ilə bağlı fondun idarə edilməsi qaydalarına zidd olmayan əqdlər bağlayır. Bu əqdlər idarəçi tərəfindən, onun hansı paylı investisiya fondunun adından çıxış etdiyi göstərilməklə bağlanılır.

10.5. İdarəçi idarəetməsində olan paylı investisiya fondunun fəaliyyəti ilə bağlı məhkəmə orqanlarında iddiaçı və cavabdeh qismində çıxış edir.

10.6. Paylı investisiya fondunun formalaşdırılmasının baş tutmuş hesab edilməsi üçün yetərli olan kapitalın minimum həcminə dair tələblər nəzarət orqanı tərəfindən müəyyən edilir.

10.7. Paylı investisiya fondunun xalis aktivlərinin minimum həcminə dair tələblər nəzarət orqanı tərəfindən müəyyən edilir.

### Maddə 11. İnvestisiya fond payı

11.1. Paylı investisiya fondunun formalaşdırılması müddəti ərzində payın yerləşdirilmə dəyəri fondun qaydaları ilə müəyyən edilir. Payın cari dəyəri bu Qanuna və nəzarət orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktlara uyğun olaraq hesablanır. Payın nominal dəyəri yoxdur.

11.2. Açıq və interval paylı investisiya fondunun payları idarəçi tərəfindən qeyri-məhdud sayda buraxıla bilər. Qapalı paylı investisiya fondunun idarəçisi tərəfindən buraxılan payların sayı fondun idarə edilməsi qaydaları ilə müəyyən edilir.

11.3. Payların dəyəri Azərbaycan Respublikasının milli valyutasında ifadə olunmaqla, yalnız pulla ödənilir.

11.4. Hər bir investisiya fond payının sahibi eyni hüquqlara malikdir.

11.5. Paylı investisiya fondunun paylarının 50%-dən çoxu bir şəxsə məxsus ola bilməz.

11.6. Paylı investisiya fondunun formalaşdırılma müddəti bitdikdən sonra payların tədavülünə məhdudiyyət qoyulmur.

11.7. Payların əsasında törəmə qiymətli kağızların buraxılışına yol verilmir.

11.8. Paylı investisiya fondunun depozitarı, auditoru və qiymətləndiricisi (olduqda), habelə onların törəmə hüquqi şəxsləri həmin fondun paylarının mülkiyyətçisi ola bilməz.

11.9. Pay sahibləri fondun idarə edilməsi ilə əlaqədar yaranmış öhdəliklər üzrə məsuliyyət daşımır və fondun aktivlərinin bazar qiymətinin dəyişməsi nəticəsində yarana biləcək zərərə görə yalnız onlara məxsus payların dəyərində risk daşıyırlar.

11.10. Pay sahiblərinin öhdəlikləri üzrə yaranan tələblər (o cümlədən, onların müflis olduğu halda) fondun bütün əmlakına şamil edilmir və yalnız həmin şəxslərə məxsus paylara yönəldilə bilər.

11.11. İdarəçi idarəetməsində olan paylı investisiya fondunun payları istisna olmaqla, digər investisiya fondlarının paylarını sata və geri satın ala bilməz.

**Maddə 12. Paylı investisiya fondunun idarə edilməsi haqqında müqavilə**

12.1. Paylı investisiya fondunda investisiya fond payını aldığı andan investor paylı investisiya fondunun idarə edilməsi haqqında müqaviləyə qoşulur və pul vəsaitlərini fondun idarə edilməsi qaydalarına uyğun olaraq idarə edilmək üçün idarəçinin sərəncamına verir.

12.2. İnvestor mülkiyyətində olan bütün payları satmaqla, paylı investisiya fondunun idarə edilməsi haqqında müqavilədə iştirakına xitam verir.

**Maddə 13. Paylı investisiya fondunun idarə edilməsi qaydaları**

13.1. Paylı investisiya fondunun idarə edilməsi qaydaları şərtləri paylı investisiya fondunun idarəçisi tərəfindən müəyyən edilən, yalnız dövlət qeydiyyatına alındıqdan sonra müvafiq hüquqi nəticələr yarada bilən, investisiya fond payının alınması ilə investor və idarəçinin qarşılıqlı hüquq və vəzifələrini müəyyən edən sənəddir.

13.2. Paylı investisiya fondunun idarə edilməsi qaydalarında (bundan sonra - fondun qaydaları) aşağıdakılar əks etdirilməlidir:

13.2.1. fondun tam adı və forması (açıq, interval və ya qapalı);

13.2.2. idarəçinin, depozitarın və auditorun tam adı, yerləşdiyi ünvan və lisenziyanın rekvizitləri;

13.2.3. qiymətləndiricinin (olduqda) tam adı və hüquqi ünvanı;

13.2.4. investisiya bəyannaməsi;

13.2.5. fondu təşkil edəcək pul vəsaitlərinin fondun formalaşdırılmasının baş tutmuş hesab olunması üçün yetərli, nəzarət orqanı tərəfindən müəyyən edilmiş minimum miqdardan az olmayan miqdarı;

13.2.6. fondun formalaşdırılması müddəti;

13.2.7. emissiya edilən payların sayı;

13.2.8. fondun formalaşdırılması müddəti ərzində bir payın dəyəri;

13.2.9. idarəçinin hüquq və vəzifələri;

13.2.10. pay sahiblərinin hüquqları;

13.2.11. fondun fəaliyyət müddəti və ya onun müddətsiz fəaliyyət göstərməsi barədə qeyd;

13.2.12. payların alınması və geri satılmasına dair sifarişlərin verilməsi və icra olunması qaydaları və müddətləri;

13.2.13. bir investorun fonda daxil edilməsi üçün tələb edilən vəsaitlərin və ya payların minimum miqdarı;

13.2.14. payların alınması ilə bağlı idarəçiyə verilmiş pul vəsaitlərinin fondun tərkibinə daxil edilməsi qaydası;

13.2.15. payın cari dəyərinin hesablanması qaydası;

13.2.16. pay sahiblərinin reyestrində mülkiyyət hüquqlarının ötürülməsinin qeydiyyatı qaydası;

13.2.17. fondun aktivləri hesabına idarəçiyə, depozitara və digər şəxslərə ödənilməli olan mükafatların, xərclərin və xidmət haqlarının hesablanma qaydası və maksimum həcmi (fondun aktivlərinə nisbətən faizlə);

13.2.18. fondun fəaliyyəti haqqında məlumatların açıqlanması qaydası;

13.2.19. fondun aktivlərinin ölkədən kənarda yerləşdirilməsi nəzərdə tutulduqda, aktivlərin xarici idarəçinin idarə edilməsinə verilməsi qaydası;

13.2.20. fondun ləğvi ilə bağlı idarəçi tərəfindən müvafiq tədbirlərin görülməsi qaydası (o cümlədən, idarəçinin lisenziyasının ləğv edilməsi halında);

13.2.21. fonddan və pay sahiblərindən vergilərin tutulması rejimi barədə məlumat;

13.2.22. paylı investisiya fondunun formalaşdırılması baş tutmadıqda, qoyulmuş vəsaitlərin geri qaytarılmasının formaları və qaydaları;

13.2.23. qanunvericiliklə müəyyən edilmiş digər məlumatlar.

13.3. Paylı investisiya fondunun idarə edilməsi qaydaları bu Qanunun 13.2-ci maddəsinin tələblərinə cavab vermədikdə, habelə özündə qanunvericiliyə zidd müddəalar əks etdirdikdə, nəzarət orqanı onun dövlət qeydiyyatına alınmasından imtina edir.

13.4. Fondun qaydalarına nəzarət orqanı tərəfindən təqdim edildiyi tarixdən etibarən 30 iş günü müddətində baxılır və qeydiyyatdan imtina üçün əsas olmadıqda, qaydalar dövlət qeydiyyatına alınır.

13.5. Dövlət qeydiyyatına alınanadək fondun qaydalarının açıqlanmasına yol verilmir.

13.6. Dövlət qeydiyyatına alındıqdan sonra fondun qaydaları idarəçisinin internet səhifəsində açıqlanmalı və qüvvədə olduğu müddət ərzində hamının tanış ola bilməsi üçün açıq olmalıdır. Fondun qaydaları açıqlanmadan fond paylarının yerləşdirilməsinə yol verilmir.

**Maddə 14. Paylı investisiya fondunun investisiya bəyannaməsi**

14.1. Paylı investisiya fondunun investisiya bəyannaməsi idarəçi tərəfindən qəbul edilir və özündə aşağıdakıları əks etdirir:

14.1.1. fondun investisiya strategiyası;

14.1.2. payların marketinq və satış strategiyası;

14.1.3. investisiya istiqamətləri və sahələri haqqında məlumat;

14.1.4. investisiya şərtləri;

14.1.5. fondun aktivlərinin diversifikasiyası şərtləri;

14.1.6. investisiyaların həyata keçirilməsi ilə bağlı risklər;

14.1.7. investisiya fəaliyyətinə dair məhdudiyyətlər;

14.1.8. dividendlərin ödənilməsi qaydası (nəzərdə tutulduqda).

**Maddə 15. Paylı investisiya fondunun idarə edilməsi qaydalarına əlavə və dəyişikliklər edilməsi**

15.1. Açıq və interval paylı investisiya fondunun idarə edilməsi qaydalarına əlavə və dəyişikliklər edilməsi haqqında qərar idarəçi tərəfindən qəbul olunur.

15.2. Qapalı paylı investisiya fondunun idarə edilməsi qaydalarına əlavə və dəyişikliklər edilməsi haqqında qərar pay sahiblərinin ümumi yığıncağı tərəfindən qəbul olunur.

15.3. Paylı investisiya fondunun idarə edilməsi qaydalarına əlavə və (və ya) dəyişikliklərin dövlət qeydiyyatına alınması barədə ərizə müvafiq qərarın qəbul edildiyi tarixdən 5 iş günü ərzində nəzarət orqanına təqdim olunur.

15.4. Paylı investisiya fondunun idarə edilməsi qaydalarına əlavə və (və ya) dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 iş günü ərzində nəzarət orqanı tərəfindən baxılır və imtina üçün əsas olmadıqda, dövlət qeydiyyatına alınır.

15.5. Paylı investisiya fondunun idarə edilməsi qaydalarına edilmiş əlavə və (və ya) dəyişikliklər qanunvericiliyin tələblərinə zidd olduqda və ya pay sahiblərinin hüquqlarını məhdudlaşdırdıqda, nəzarət orqanı onları dövlət qeydiyyatına almaqdan imtina edir və imtinanın səbəbləri göstərilməklə, idarəçiyə bildiriş göndərir. İmtinadan inzibati və ya məhkəmə qaydasında şikayət verilə bilər.

15.6. Dövlət qeydiyyatına alındığı tarixdən 5 iş günü ərzində həmin əlavə və (və ya) dəyişikliklər paylı investisiya fondunun idarəçisinin internet səhifəsində və kütləvi informasiya vasitələrində açıqlanır və açıqlandığı tarixdən 30 təqvim günü sonra qüvvəyə minir.

**Maddə 16. Paylı investisiya fondunun formalaşdırılması və payın dəyərinin hesablanması**

16.1. Paylı investisiya fondunun idarə edilməsi qaydaları nəzarət orqanı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra idarəçi həmin fondun paylarını investorlara təklif edə bilər.

16.2. İdarəçi paylı investisiya fondunun qaydalarının dövlət qeydiyyatına alındığı tarixindən etibarən 90 gün ərzində fondun formalaşdırılmasını başa çatdırmalıdır. Göstərilən müddət ərzində formalaşdırılması baş tutmadıqda, fond paylı investisiya fondlarının dövlət reyestrindən çıxarılır və idarəçi həmin fondu formalaşdırmaq hüququnu itirir.

16.3. İdarəçi paylı investisiya fondunun formalaşdırılmasının baş tutmuş hesab edilməsi üçün yetərli olan kapitalın nəzarət orqanı tərəfindən müəyyən edilən minimum həcmindən az olmamaqla, pulla ifadə olunmuş minimum həcmini fondun qaydalarında müəyyən edir.

16.4. Paylı investisiya fondunun formalaşdırıldığı müddət ərzində paylar fondun qaydalarında müəyyən edilmiş dəyərlə yerləşdirilir.

16.5. Paylı investisiya fondunun paylarının yerləşdirilməsi zamanı əldə edilmiş pul vəsaitləri depozitarda açılmış xüsusi hesabda saxlanılır. Fondun

formalaşdırıldığı müddət ərzində əldə olunmuş pul vəsaitləri yalnız banklarda depozit şəklində və (və ya) qısamüddətli dövlət qiymətli kağızlarına yerləşdirilə bilər.

16.6. Fondun formalaşdırılması başa çatdıqdan sonra idarəçi tərəfindən bir payın satış qiyməti və payın geri satın alınması ilə bağlı pay sahibinə ödənilməli olan pulun məbləği (fondun ləğv edilməsi halı istisna olmaqla) payın cari dəyərinə əsasən hesablanır.

16.7. Idarəçi tərəfindən payların satışı və geri satın alınması zamanı onların dəyəri fondun xalis aktivlərinin satış və ya geri satın alınma barədə sifarişin verilməsindən sonrakı növbəti hesablanması zamanı müəyyən edilmiş dəyərinin hesablama tarixinə payların ümumi sayına (pay sahiblərinin reyestri əsasında) bölünməsi yolu ilə müəyyən edilir.

16.8. Fondun formalaşdırılması müddəti başa çatdıqdan sonra xalis aktivlərin dəyərinin hesablanması və bu barədə məlumatın açıqlanması aşağıdakı qaydada həyata keçirilir:

16.8.1. açıq paylı investisiya fondları üzrə - həftədə azı bir dəfə, payların satışı və geri satın alınması üzrə sifarişlərin qəbulu müddətinin başa çatdığı gün;

16.8.2. interval paylı investisiya fondları üzrə - ayda bir dəfə, habelə payların satışı və geri satın alınması üzrə sifarişlərin qəbulu müddətinin başa çatdığı gün;

16.8.3. qapalı paylı investisiya fondları üzrə - fondun qaydalarına uyğun olaraq, fondun qaydalarına əlavə və dəyişikliklər edilməsi və ya fondun ləğvi ilə bağlı payların geri satın alınması halında isə, müvafiq sifarişlərin qəbulunun başlandığı gün.

16.9. Xalis aktivlərin dəyəri barədə məlumat fondun idarəçisinin rəsmi internet səhifəsində və ya fondun qaydaları ilə müəyyən edilmiş kütləvi informasiya vasitələrində açıqlanmalıdır.

16.10. Paylı investisiya fondunun formalaşdırılması müddəti bitdikdən sonra idarəçi nəzarət orqanına 3 iş günü ərzində fondun formalaşdırılması haqqında hesabat təqdim etməlidir.

16.11. Fondun formalaşdırılması müddəti bitdikdən sonra cəlb edilmiş vəsaitin həcmi fondun qaydaları ilə müəyyən edilmiş ilkin kapitalın miqdarından az olduqda, fondun formalaşdırılması baş tutmamış hesab edilir. Bu halda idarəçi öz vəsaitləri hesabına bu barədə məlumatı dərhal dərc etdirməli və 30 gün ərzində payların satışından əldə edilmiş pul vəsaitlərini və gəlirləri (olduqda) payların sahiblərinə, onlara məxsus payların sayına mütənasib şəkildə qaytarmalıdır.

**Maddə 17. Paylı investisiya fondunun paylarının satışı**

17.1. Payın satışı idarəçiyə investor tərəfindən verilmiş sifariş əsasında həyata keçirilir. Paylı investisiya fondunun payları idarəçinin özü tərəfindən və ya broker vasitəsilə yerləşdirilə bilər. İnterval və qapalı paylı investisiya fondlarının yerləşdirilmiş payları ilə alqı-satqı əqdləri yalnız fond birjasında bağlanıla bilər.

17.2. Açıq paylı investisiya fondunun paylarının satışı idarəçi tərəfindən həftədə bir dəfə həyata keçirilir. Açıq paylı investisiya fondunun paylarının cari dəyərindən aşağı qiymətə satılmasına yol verilmir.

17.3. İnterval paylı investisiya fondunun paylarının satışı ildə bir dəfədən az olmamaq şərtilə, fondun qaydalarında müəyyən edilmiş müddətdə idarəçi tərəfindən həyata keçirilir. İnterval paylı investisiya fondu formalaşdırıldıqdan sonra payların alınması üzrə sifarişlərin hər bir qəbul müddəti 10 iş günündən az olmamalıdır. Sifarişlərin növbəti qəbul müddəti sifarişlərin əvvəlki qəbul müddətinin bitməsindən 60 gün sonra başlana bilər.

17.4. Qapalı paylı investisiya fondunun paylarının satışı yalnız fondun formalaşdırıldığı müddət ərzində, habelə bu Qanunun 21.13-cü maddəsində göstərilmiş hallarda paylar geri satın alındıqdan sonra idarəçi tərəfindən həyata keçirilə bilər. Bu halda payların alınması üzrə sifarişlər onların geri satın alınma müddəti bitdikdən sonra 10 iş günü ərzində verilə bilər.

17.5. Paylar müvafiq pul vəsaitləri fonda daxil olduqdan sonra investorun adına rəsmiləşdirilir. Pay depozitar tərəfindən alıcının adına açılmış depo hesabına köçürüldükdən sonra əldə edilmiş hesab edilir. Paya sahiblik hüququnu təsdiq edən sənədlər payların alıcının depo hesabına köçürüldüyü gündən etibarən 1 iş günü ərzində ona təqdim edilməli və pay sahiblərinin reyestrində müvafiq qeydlər aparılmalıdır.

17.6. Payın satışından aşağıdakı hallarda imtina edilə bilər:

17.6.1. fondun qaydaları ilə nəzərdə tutulmuş sifarişlərin verilmə şərtlərinə alıcı tərəfindən riayət edilmədikdə;

17.6.2. payın alınması üzrə sifariş bu Qanuna əsasən pay sahibi qismində çıxış edə bilməyən şəxslər tərəfindən verildikdə;

17.6.3. bu Qanunla nəzərdə tutulmuş qaydada payların satışının dayandırılması haqqında qərar qəbul edildikdə.

### Maddə 18. Paylı investisiya fondunun paylarının geri satın alınması

18.1. Paylar bilavasitə idarəçi tərəfindən və ya brokerin vasitəsi ilə, investisiya fondunun aktivləri hesabına geri satın alına bilər.

18.2. Paylı investisiya fondunun formalaşdırılması müddətində payların geri satın alınmasına yol verilmir.

18.3. Fondun formalaşdırılması müddəti istisna olmaqla, payların geri satın alınması payların satışı ilə eyni zamanda həyata keçirilməlidir.

18.4. Açıq paylı investisiya fondunun paylarının geri satın alınması barədə sifariş fondun qaydaları ilə nəzərdə tutulmuş müddətdə (həftədə bir dəfədən az olmamaq şərti ilə) idarəçi tərəfindən qəbul edilir. Payların geri satın alınmasını tələb edən şəxsə ödənişlər payların geri satın alınması tarixindən etibarən 10 iş günü ərzində həyata keçirirlir.

18.5. İnterval paylı investisiya fondunun paylarının geri satın alınması barədə sifariş fondun qaydaları ilə nəzərdə tutulmuş müddətdə (ildə bir dəfədən az olmamaq şərti ilə) idarəçi tərəfindən qəbul edilir. Sifarişlərin hər bir qəbul müddəti 10 iş günündən az olmamalıdır. Payların geri satın alınması barədə sifarişlərin qəbul müddəti əvvəlki qəbul müddətinin bitməsindən 60 gündən sonra başlana bilər. Payların geri satın alınmasını tələb edən şəxsə ödənişlər sifarişlərin qəbul müddətinin bitməsindən sonrakı 15 iş günü ərzində edilir.

18.6. Qapalı paylı investisiya fondunun paylarının geri satın alınması barədə sifariş fondun fəaliyyət müddətinin sonunda və bu Qanunun 21.13-cü maddəsi ilə nəzərdə tutulmuş hallarda idarəçi tərəfindən qəbul edilir. Payların geri satın alınması barədə sifarişlərin qəbul müddəti fondun qaydalarında (həmin halların yarandığı tarixdən 10 iş günündən gec olmamaq şərti ilə) müəyyən edilir. Payların geri satın alınmasını tələb edən şəxsə ödənişlərin edilməsi fondun qaydaları ilə nəzərdə tutulmuş müddətdə (sifarişlərin qəbul müddətinin bitməsindən sonra 30 gündən gec olmamaq şərti ilə) təmin edilməlidir.

18.7. İdarəçi aşağıdakı hallarda payların geri satın alınmasından imtina edə bilər:

18.7.1. payların geri satın alınması barədə fondun qaydaları ilə müəyyən edilmiş sifarişin verilmə şərtlərinə riayət olunmadıqda;

18.7.2. bu Qanunla nəzərdə tutulmuş qaydada payların geri satın alınmasının dayandırılması haqqında qərar qəbul edildikdə.

**Maddə 19. Paylı investisiya fondunun paylarının satışının və geri satın alınmasının dayandırılması**

19.1. Paylı investisiya fondunun paylarının geri satın alınması dayandırıldıqda, onun paylarının satışı da dayandırılır.

19.2. Paylı investisiya fondunun paylarının satışı və geri satın alınması idarəçinin qərarı ilə aşağıdakı hallarda dayandırılır:

19.2.1. depozitar xidmətlərinin göstərilməsi ilə bağlı hüquq və öhdəliklər digər depozitara keçdiyi müddət ərzində;

19.2.2. fors-major hallarında fondun fəaliyyətinin təmin edilməsi mümkün olmadıqda.

19.3. Açıq paylı investisiya fondunun payının cari dəyəri bundan əvvəlki tarixə hesablanmış payın dəyərinə nisbətən 20 faiz dəyişdikdə və ya payların geri satın alınması nəticəsində açıq və ya interval paylı investisiya fondunun xalis aktivlərinin dəyəri sonuncu hesablanma tarixinə nisbətən 10 faiz və daha çox azaldıqda, idarəçi nəzarət orqanını məlumatlandırmaqla, fondun paylarının satışını və geri satın alınmasını 3 iş günündən çox olmayan müddətə dayandıra bilər.

19.4. Idarəçi paylı investisiya fondunun paylarının satışının və geri satın alınmasının dayandırılması barədə qərarı yalnız payların satışı və geri satın alınması üzrə sifarişlərin qəbul müddəti bitdikdən sonra qəbul edə bilər.

19.5. Payların satışını və geri satın alınmasını dayandırdıqda, idarəçi müvafiq qərarın qəbul edildiyi gün dayandırmanın səbəblərini göstərməklə, fondun depozitarına və nəzarət orqanına yazılı formada məlumat təqdim etməlidir.

19.6. Paylı investisiya fondunun paylarının satışı və geri satın alınması aşağıdakı hallarda nəzarət orqanının qərarı ilə dayandırılır:

19.6.1. idarəçinin və ya depozitarın müvafiq lisenziyası ləğv olunduqda;

19.6.2. idarəçi, depozitar, auditor və ya qiymətləndirici tərəfindən investisiya fondunun fəaliyyətinin təmin edilməsi ilə bağlı qanunvericiliyin tələbləri pozulduqda.

19.7. Payların satışı və geri satın alınması onların dayandırılmasının səbəbləri aradan qaldırıldıqdan sonra bərpa edilir. Payların satışının və geri satın alınmasının bərpası üçün idarəçi həmin səbəblərin aradan qaldırılmasını təsdiqləyən faktları göstərməklə, fondun depozitarına və nəzarət orqanına yazılı formada məlumat təqdim etməli, habelə həmin məlumatı fondun qaydalarında müəyyən edilmiş kütləvi informasiya vasitələrində dərhal dərc etdirməlidir.

**Maddə 20. Paylı investisiya fondunun pay sahiblərinin reyestri**

20.1. Paylı investisiya fondu haqqında məlumat, o cümlədən satılmış və geri satın alınmış payların ümumi məbləği və dəyəri, pay sahibləri və onlara məxsus payların miqdarı, habelə idarəçi barədə məlumatlar paylı investisiya fondunun pay sahiblərinin reyestrində əks olunur.

20.2. Paylı investisiya fondunun pay sahiblərinin reyestri qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan reyestrsaxlayıcı tərəfindən aparılır.

**Maddə 21. Qapalı paylı investisiya fondunun pay sahiblərinin ümumi yığıncağı**

21.1. Pay sahiblərinin ümumi yığıncağı idarəçi tərəfindən aşağıdakı hallarda çağırılır:

21.1.1. idarəçinin və ya depozitarın təşəbbüsü ilə;

21.1.2. payların ən azı 10 faizinin sahiblərinin yazılı tələbi ilə.

21.2. Ümumi yığıncağın çağırılması haqqında pay sahiblərinin yazılı tələblərinə yığıncağın çağırılmasının səbəbləri və gündəliyə dair təkliflər daxil edilməlidir.

21.3. Pay sahiblərinin ümumi yığıncağında iştirak etmək hüququna malik olan şəxslərin siyahısı fondun pay sahiblərinin reyestri əsasında müəyyənləşdirilir. Həmin siyahı ümumi yığıncağın keçirilməsinədək 60 gündən gec və 45 gündən tez olmayan müddətə tərtib olunmalıdır.

21.4. Pay sahiblərinin ümumi yığıncağının keçirilməsi barədə tələbin daxil olduğu tarixindən etibarən idarəçi aşağıdakıları yerinə yetirməlidir:

21.4.1. ümumi yığıncağın keçirilmə vaxtını və yerini 3 iş günü ərzində müəyyən etmək;

21.4.2. pay sahiblərinə və depozitara 5 iş günü ərzində ümumi yığıncağın keçirilməsi barədə bildirişlər göndərmək.

21.5. İdarəçi ümumi yığıncağın keçirilməsini müvafiq tələbin daxil olduğu tarixdən 30 təqvim günündən tez və 45 təqvim günündən gec olmayaraq təmin etməlidir.

21.6. İdarəçi bu Qanunun 21.1.2-ci maddəsində nəzərdə tutulan pay sahiblərinin tələbi ilə ümumi yığıncağın çağırılmasından imtina etdikdə, yaxud bunu əsassız olaraq gecikdirdikdə, ümumi yığıncaq pay sahiblərinin müraciəti ilə depozitar tərəfindən çağırılır.

21.7. Pay sahiblərinin ümumi yığıncağı payların ən azı 60 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir.

21.8. Pay sahiblərinin ümumi yığıncağında yetərsay olmadıqda, ümumi yığıncaq bu Qanunun 21.4-cü maddəsində müəyyən edilmiş tələblərə əməl edilməklə yenidən çağırılmalıdır. Bu halda ümumi yığıncağın gündəliyi dəyişdirilməməlidir. Təkrarən çağırılan ümumi yığıncaq payların 40 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir.

21.9. Təkrarən çağırılan ümumi yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncaq bu Qanunun 21.4-cü maddəsində müəyyən edilmiş tələblərə riayət edilməklə yenidən çağırılmalıdır. Bu halda ümumi yığıncağın gündəliyi dəyişdirilməməlidir. Təkrarən çağırılan ümumi yığıncaq payların 25 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir.

21.10. Bu Qanunun 21.9-cu maddəsinə əsasən təkrarən çağırılan ümumi yığıncağın keçirilməsi üçün yetərsay təmin olunmadıqda, idarəçi bu barədə nəzarət orqanına məlumat verməklə, yetərsaydan asılı olmayaraq ümumi yığıncağı keçirir və onun qərarı əsasında paylı investisiya fondu ləğv edilir.

21.11. Pay sahiblərinin ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

21.11.1. fondun qaydalarına əlavə və dəyişikliklər edilməsi;

21.11.2. idarəçinin, depozitarın, auditorun və qiymətləndiricinin (olduqda) əvəz edilməsi;

21.11.3. fondun idarə edilməsi müqaviləsinə vaxtından əvvəl xitam verilməsi haqqında qərar qəbul edilməsi;

21.11.4. fondun xərclərinin artırılması;

21.11.5. fondun yenidən təşkili və ləğv edilməsi.

21.12. Pay sahibinə məxsus səslərin sayı ümumi yığıncağın keçirilməsi zamanı onun mülkiyyətində olan payların sayına bərabərdir. Fondun qaydalarına əlavə və dəyişikliklər edilməsi, idarəçinin, depozitarın, auditorun və qiymətləndiricinin (olduqda) əvəz edilməsi, habelə yenidən təşkil və ləğv barədə ümumi yığıncağın qərarları səsvermədə iştirak edənlərin üçdə iki səs çoxluğu ilə qəbul edilir. Digər məsələlər üzrə qərarlar səsvermədə iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir.

21.13. Fondun qaydalarında əlavə və dəyişikliklər edilməsi, onun yenidən təşkili və ləğvi barədə məsələlər üzrə qərarlar qəbul edildikdə, səsvermədə həmin qərarların əleyhinə səs vermiş pay sahibləri mülkiyyətlərində olan payların geri satın alınmasını tələb edə bilərlər. Belə hallarda payların geri satın alınması üzrə

sifarişlərin idarəçi tərəfindən qəbulu və ödənilməsi bu Qanunla müəyyən edilmiş qaydada həyata keçirilir.

21.14. Fondun qaydaları ilə nəzərdə tutulduğu halda, pay sahibi ümumi yığıncaqda imzası qanunvericiliklə müəyyən edilmiş qaydada (notarial və sair) təsdiq edilməklə, qiyabi surətdə səs verə bilər.

21.15. İdarəçi (bu Qanunun 21.6-cı maddəsi ilə nəzərdə tutulmuş halda isə depozitar) pay sahiblərinin ümumi yığıncağının keçirildiyi tarixdən 3 iş günündən gec olmayaraq yığıncağın protokolunun surətini nəzarət orqanına təqdim etməlidir.

**Maddə 22. Paylı investisiya fondunun əmlakının uçotu**

22.1. Paylı investisiya fondunun əmlakı idarəçinin özünə məxsus, habelə onun idarəçiliyində olan digər fondlara aid əmlakdan ayrı olaraq formalaşır və uçotu ayrı aparılır.

22.2. Paylı investisiya fondunun idarə edilməsi ilə bağlı əməliyyatların aparılması üçün fondun depozitarında ayrıca pul hesabı, fondun əmlakını təşkil edən qiymətli kağızların uçotunun aparılması üçün isə, fondun depozitarında ayrıca depo hesabları açılır. Həmin hesablar paylı investisiya fondunun adı göstərilməklə, idarəçinin adına açılır və fondun onun idarəçiliyində olması barədə məlumatı özündə əks etdirir.

22.3. Qapalı paylı investisiya fondunu təşkil edən daşınmaz əmlaka hüquqlar dövlət qeydiyyatına alınarkən daşınmaz əmlakın dövlət reyestrində fondun və onun idarəçisinin adları qeyd olunur.

22.4. İdarəçi və ya depozitar müflisləşdikdə paylı investisiya fondunu təşkil edən əmlak müsabiqə kütləsinə daxil edilmir.

**Maddə 23. Paylı investisiya fondunun pay sahiblərinə zərərin vurulmasına görə məsuliyyət**

23.1. İdarəçi müvafiq qanunvericiliyin tələblərini pozması və ya fondun idarəedilmə qaydalarına riayət etməməsi nəticəsində pay sahiblərinə vurduğu zərərə görə onların qarşısında tam məsuliyyət daşıyır.

23.2. İdarəçi fondun aktivlərinin bazar dəyərinin artması və ya azalması nəticəsində payın cari dəyərinin dəyişməsinə görə pay sahibləri qarşısında məsuliyyət daşımır.

23.3. Depozitar bu Qanunla və nəzarət orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarla müəyyən edilmiş tələbləri pozduqda, pay sahibləri qarşısında idarəçi ilə birgə məsuliyyət daşıyır. Bu halda idarəçi depozitara qarşı reqress tələbini irəli sürə bilər.

## IV fəsil

## İnvestisiya fondunun idarəçisi, depozitarı, auditoru və aidiyyəti şəxsləri

### Maddə 24. İnvestisiya fondunun idarəçisi

24.1. Azərbaycan Respublikasının ərazisində yalnız qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyatdan keçmiş, müstəsna olaraq aktivlərin idarə edilməsi üzrə fəaliyyət göstərən və bu fəaliyyət növü üzrə xüsusi razılığa (lisenziyaya) malik olan hüquqi şəxslər investisya fondunun idarəçisi ola bilərlər.

24.2. İdarəçi digər sahibkarlıq fəaliyyət növləri ilə məşğul ola bilməz. İdarəçinin nizamnaməsində qanunvericiliklə hüquqi şəxslərin nizamnaməsində müəyyən edilmiş tələblərlə yanaşı fəaliyyətinin müstəsna predmetinin müştərilərinə məxsus pul vəsaitləri, qiymətli kağızlar və qanunvericilikdə nəzərdə tutulmuş digər əmlakla onların və ya üçüncü şəxslərin xeyrinə əməliyyatların aparılması üzrə peşəkar fəaliyyətdən ibarət olması müəyyən edilməlidir.

24.3. İdarəçi investisiya fondunu səhmdar investisiya fondu və ya pay sahibləri ilə bağlanılmış idarəetmə müqaviləsi əsasında, bu Qanunun və digər qanunvericilik aktlarının tələblərinə, səhmdarların və ya pay sahiblərinin maraqlarına uyğun olaraq idarə edir.

24.4. İnvestisiya fondunun aktivlərinin idarə edilməsi ilə əlaqədar idarəçinin vəzifələri aşağıdakılardır:

24.4.1. fondun aktivlərini formalaşdırmaq və idarə etmək;

24.4.2. investisiya fondunun aktivlərinin ümumi dəyərinin, hərəkətinin və tərkibinin uçotunu aparmaq, habelə payların cari dəyərini hesablamaq;

24.4.3. paylı investisiya fondunun aktivlərinin ayrıca maliyyə uçotunu aparmaq və qanunvericiliklə müəyyən olunmuş qaydada nəzarət orqanına hesabatlar təqdim etmək;

24.4.4. investisiya fondunun aktivlərinin dəyərini, hərəkətini və tərkibini depozitarlarla aşağıdakı müddətlərdə üzləşdirmək :

24.4.4.1. açıq paylı investisiya fondları üzrə - həftədə azı bir dəfə;

24.4.4.2. səhmdar investisiya fondları, interval və qapalı paylı investisiya fondları üzrə - ayda azı bir dəfə;

24.4.5. ayda azı bir dəfə səhmdar investisiya fondunu və ya paylı investisiya fondunun pay sahiblərini fondun xalis aktivlərinin tərkibi və dəyəri, habelə idarəetmə müqaviləsinə və ya fondun qaydalarına uyğun olaraq bir payın cari dəyəri haqqında müntəzəm olaraq məlumatlandırmaq.

24.5. İdarəçi paylı investisiya fondunun aktivləri ilə əqdlər bağladıqda, investisiya fondunun adını göstərməlidir. Əks təqdirdə, idarəçinin üzərinə götürdüyü öhdəliklər öz hesabına icra edilməlidir.

24.6. İnvestisiya fondunun aktivlərinin ölkədən kənarda yerləşdirildiyi hallar istisna olmaqla, investisiya fondunun eyni zamanda yalnız bir idarəçisi ola bilər. İnvestisiya fondunun aktivləri ölkədən kənarda yerləşdirildikdə, onların idarə edilməsi yalnız həmin ölkədə müvafiq lisenziyaya və ya icazəyə, habelə bu sahədə azı 3 il iş təcrübəsinə malik olan xarici idarəçiyə həvalə oluna bilər. Aktivlərin idarə edilməsi nəzarət orqanının icazəsi alındıqdan sonra xarici idarəçiyə həvalə oluna bilər.

24.7. Aktivlərin idarə edilməsinin xarici idarəçiyə həvalə edilməsinə icazənin alınması üçün nəzarət orqanına edilən müraciətdə xarici idarəçinin adı, yerləşdiyi ünvan və lisenziyasının rekvizitləri göstərilməli, onunla bağlanılması nəzərdə tutulan müqavilənin layihəsi əlavə edilməlidir. Nəzarət orqanı risklərin azaldılması və investorların hüquqlarının müdafiəsi baxımından zəruri hesab etdiyi əlavə məlumatların verilməsini tələb edə bilər. Aktivlərin idarə edilməsi yalnız qanunvericiliyi aktivlərin idarə edilməsi fəaliyyəti üzərində Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulduğuna bərabər və ya ondan daha ciddi nəzarət rejimi tətbiq edən ölkənin ərazisində fəaliyyət göstərən xarici idarəçiyə həvalə oluna bilər.

24.8. Nəzarət orqanı müraciətə sənədlərin tam təqdim olunduğu tarixdən 30 gün ərzində baxaraq icazənin verilməsinə və ya bundan imtina edilməsinə dair əsaslandırılmış qərar qəbul edir.

24.9. Aktivlərin idarə edilməsinin xarici idarəçiyə həvalə olunmasını investorların hüquqlarının müdafiəsi baxımından qeyri-qənaətbəxş hesab etdikdə, habelə, xarici idarəçi bu Qanunun 24.6-cı və 24.7-ci maddələri ilə müəyyənləşdirilən tələblərə cavab vermədikdə, nəzarət orqanı icazənin verilməsindən imtina edir.

24.10. Nəzarət orqanından müvafiq icazə alındıqdan sonra idarəçi 3 gün ərzində bu barədə məlumatı kütləvi informasiya vasitələrində açıqlamalıdır.

24.11. İnvestisiya fondlarının aktivlərinin idarə edilməsi zamanı idarəçi aşağıdakılara riayət etməlidir:

24.11.1. qanunvericiliyə, investisiya bəyannaməsinə və ya fondun qaydalarına zidd olan əqdlər bağlamamalı;

24.11.2. fondun aktivlərini əvəzsiz özgəninkiləşdirməməli;

24.11.3. fondun aktivlərini şəxsi öhdəliklərinin təmin olunması üçün istifadə etməməli, öz maraqları üçün borc verməməli, girov qoymamalı və ya digər şəkildə yüklü etməməli;

24.11.4. özünə məxsus olan aktivləri investisiya fonduna satmamalı və ya fondun aktivlərinin tərkibinə daxil etməməli;

24.11.5. idarəçiliyində olan fondun aktivlərini almamalı;

24.11.6. fondun aktivlərini öz adına rəsmiləşdirməməli;

24.11.7. fondun aktivlərinin tərkibinə idarəçiliyində olan digər investisiya fondunun aktivlərini daxil etməməli;

24.11.8. fondun aktivləri hesabına özünün və depozitarın aidiyyəti şəxslərinin qiymətli kağızlarını və ya əmlakını almamalı və ya fondun aktivlərini onlara satmamalı;

24.11.9. fondun xalis aktivlərinin dəyəri, habelə payın cari dəyəri ilə manipulyasiyalara yol verməməlidir.

24.12. İdarəçi idarəçiliyində olan investisiya fondunun paylarını və ya səhmlərini səhmdar investisya fondunun səhmlərinin ilkin yerləşdirilməsi və ya paylı investisiya fondunun formalaşdırılması müddətləri istisna olmaqla ala bilər. İdarəçi idarəçiliyində olan investisiya fondlarının paylarının və ya səhmlərinin alınması və satılması barədə məlumatı investisiya bəyannaməsində, yaxud paylı investisiya fondunun idarə edilməsi qaydalarında müəyyən olunmuş qaydada azı 20 gün əvvəl açıqlamalıdır.

**Maddə 25. İnvestisiya fondunun depozitarı**

25.1. İnvestisiya fondunun səhmlərinin (paylarının) saxlanılması, onlara hüquqların, yüklülük faktlarının uçotu və təsdiqi, habelə investisiya fondunun idarəçilikdə olan aktivlərinin, onlara dair sənədlərin saxlanılması və uçotunun aparılması qanunvericilikdə digər hal nəzərdə tutulmadıqda, depozitar tərəfindən həyata keçirilir.

25.2. Depozitarın idarəçi və səhmdar investisiya fondu ilə qarşılıqlı münasibətləri nəzarət orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktların tələblərinə uyğun olaraq onlar arasında bağlanılmış müqavilə ilə tənzimlənir.

25.3. Depozitar bu Qanunun 25.1-ci maddəsində göstərilənlərlə yanaşı investisiya fondunun aktivlərinin idarə edilməsi ilə bağlı pul hesablarının açılmasını, aparılmasını və pul köçürmələrini həyata keçirir.

25.4. Depozitar depozit sisteminə daxil olan depozitarların uçotunu aparan və qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan depozitarda (Mərkəzi Depozitar) müxbir hesabı aça bilər. Mərkəzi Depozitar Azərbaycan Respublikasının Mərkəzi Bankında müxbir hesabı aça bilər.

25.5. Depozitar tərəfindən pul hesablarının açılması və aparılması, pul köçürmələrinin həyata keçirilməsi qaydaları Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə razılaşdırılmaqla nəzarət orqanı tərəfindən müəyyən edilir.

25.6. Depozitar investisiya fondunun aktivlərinin uçotunu özünə məxsus olan aktivlərindən və müştərilərinin aktivlərindən ayrı aparır.

25.7. İnvestisiya fondunun aktivlərinin ölkədən kənarda yerləşdirildiyi hallar istisna olmaqla investisiya fondunun eyni zamanda yalnız bir depozitarı ola bilər. İnvestisiya fondunun aktivləri ölkədən kənarda yerləşdirildikdə, onların saxlanılması və uçotunun aparılması yalnız həmin ölkədə müvafiq lisenziyaya və ya icazəyə malik olan xarici depozitara həvalə edilə bilər. Aktivlərin saxlanılması və uçotunun aparılması nəzarət orqanının icazəsi alındıqdan sonra xarici depozitara həvalə edilə bilər.

25.8. Aktivlərin saxlanılması və uçotunun aparılmasının xarici depozitara həvalə olunmasına icazənin alınması məqsədi ilə nəzarət orqanına edilən müraciətdə xarici depozitarın adı, yerləşdiyi ünvan və lisenziyasının rekvizitləri göstərilməlidir. Nəzarət orqanı müraciətə 30 gün ərzində baxaraq, icazənin verilməsinə və ya bundan imtina edilməsinə dair əsaslandırılmış qərar qəbul edir. Aktivlərin saxlanması və uçotu yalnız qanunvericiliyi depozitar fəaliyyəti üzərində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulduğuna bərabər və ya ondan daha ciddi nəzarət rejimi müəyyən edən ölkədə fəaliyyət göstərən xarici depozitara həvalə oluna bilər. Nəzarət orqanından müvafiq icazə alındıqdan sonra idarəçi 3 gün ərzində bu barədə məlumatı kütləvi informasiya vasitələrində açıqlamalıdır.

25.9. Aktivlərin saxlanılması və uçotunun aparılmasının xarici depozitara həvalə olunması investorların hüquqlarının müdafiəsi baxımından qeyri-qənaətbəxş hesab edildikdə, habelə, xarici depozitar bu Qanunun 25.7-ci və 25.8-ci maddələri ilə müəyyən edilən tələblərə cavab vermədikdə, nəzarət orqanı icazənin verilməsindən imtina edir.

25.10. İnvestisiya fondunun aktivlərinin uçotu və saxlanılması, habelə həmin aktivlərlə bağlı əməliyyatlar üzrə hesablaşmaların aparılması məqsədi ilə depozitar investisiya fondu üçün ayrıca hesablar açır və onların idarəçinin sərəncamında olması barədə qeyd edir.

25.11. Depozitarın vəzifələri aşağıdakılardır:

25.11.1. qanunvericiliklə müəyyən edilmiş qaydada fondun aktivlərinin uçotunu aparmaq, fonda məxsus pul vəsaitlərini, qiymətli kağızları və əmlak hüquqlarını təsdiq edən sənədlərin əslini qəbul etmək və saxlamaq;

25.11.2. fondun səhmlərinin və ya paylarının yerləşdirilməsinə (satışına) və geri satın alınmasına nəzarət etmək;

25.11.3. fondun aktivləri ilə əqdlərin bağlanılmasına nəzarət etmək, həmin əqdlər bu Qanunun tələblərinə, investisiya bəyannaməsinə və ya fondun qaydalarına zidd olduqda, idarəçinin müvafiq tapşırıqlarının icrasından imtina etmək;

25.11.4. fondun aktivlərinin dəyərinin, hərəkətinin və tərkibinin uçotunu aparmaq, habelə fondun formalaşdırılması bitdikdən sonra payların dəyərinin düzgün hesablanmasına nəzarət etmək;

25.11.5. fondun aktivlərinin dəyərinin, hərəkətinin və tərkibinin idarəçi və ya səhmdar investisiya fondunun icra orqanı ilə üzləşdirilməsini aşağıdakı müddətlərdə həyata keçirmək:

25.11.5.1. açıq paylı investisiya fondları üzrə – həftədə azı 2 dəfə;

25.11.5.2. səhmdar investisiya fondları, interval və qapalı paylı investisiya fondları üzrə - ayda azı bir dəfə.

25.11.6. idarəçi və ya səhmdar investisiya fondunun icra orqanı tərəfindən yol verilmiş pozuntular haqqında onların aşkar edildiyi tarixdən 1 iş günü ərzində nəzarət orqanına yazılı məlumat vermək.

25.12. İdarəçi və ya səhmdar investisiya fondu ilə depozitar arasında bağlanmış müqaviləyə xitam verildikdə, tərəflər həmin müqaviləyə xitam verilməsinin səbəblərini göstərməklə, bu barədə dərhal nəzarət orqanına məlumat verməlidir.

25.13. İdarəçi və ya səhmdar investisiya fondu ilə depozitar arasında bağlanılmış müqaviləyə xitam verildikdə, həmin depozitar idarəçinin digər depozitar ilə müvafiq müqavilə bağlaması barədə məlumatı alanadək fond ilə bağlı bütün sənədlərin saxlanılmasını və uçotunun aparılmasını, idarəçi və digər depozitar arasında bağlanılmış müqavilə barədə məlumat aldıqdan sonra isə fond ilə bağlı bütün sənədlərin yeni depozitara ötürülməsini təmin etməlidir. Bu zaman göstərilən xidmətlərin haqqı xitam verilən müqavilə ilə müəyyən edilmiş qaydada ödənilir.

**Maddə 26. İnvestisiya fondunun auditi və aktivlərinin qiymətləndirilməsi**

26.1. İnvestisiya fondunun idarəçisi ildə azı bir dəfə kənar auditor tərəfindən yoxlanılmalıdır. İnvestisiya fondunun auditi, yalnız nəzarət orqanı və auditor xidmətlərini tənzimləyən aidiyyəti orqan tərəfindən birgə müəyyən edilmiş tələblərə cavab verən kənar auditorlar tərəfindən aparıla bilər.

26.2. İnvestisiya fondunun yoxlamasını aparan kənar auditor Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hüquq və vəzifələri yerinə yetirməklə yanaşı, aşağıdakıları yoxlayır:

26.2.1. investisiya fondunun aktivləri və onlarla əməliyyatlar üzrə uçotun aparılmasını və maliyyə hesabatlarının hazırlanmasını;

26.2.2. investisiya fondunun aktivlərinin tərkibini və strukturunu;

26.2.3. investisiya fondunun aktivlərinin dəyərinin, payın cari dəyərinin qiymətləndirilməsini, habelə payların və səhmlərin yerləşdirilmə və geri satın alınma qiymətlərinin müəyyən edilməsinin düzgünlüyünü;

26.2.4. investisiya fondunun aktivləri ilə bağlanılmış əqdləri;

26.2.5. idarəçi tərəfindən investisiya fondunun aktivlərinin dəyərinin, hərəkətinin və tərkibinin, habelə payların cari dəyərinin depozitarla üzləşdirilməsi qaydasını və nəticələrini;

26.2.6. investisiya fondunun aktivlərinin və onlara hüquqları təsdiq edən sənədlərin saxlanılması qaydasını;

26.2.7. investisiya fondunun fəaliyyəti ilə bağlı mükafatların, xərclərin və xidmət haqlarının həcmini və ödənilməsini;

26.2.8. dividentlərin ödənilməsi qaydasını (nəzərdə tutulduqda);

26.2.9. buraxılmış səhmlərin və ya payların sayını.

26.3. Kənar auditor aşkar etdiyi əhəmiyyətli nöqsanlar barədə məlumatı, həmçinin auditin nəticələri üzrə tövsiyələrinin bir nüsxəsini nəzarət orqanına təqdim etməlidir.

26.4. Kənar auditor fonda xidmətlərinin göstərilməsini dayandırdığı halda, nəzarət orqanına bunun səbəbləri barədə məlumat verməlidir.

26.5. İnvestisiya fondunun aktivlərini təşkil edən daşınmaz əmlakın və fond birjasında kotirovka edilməyən qiymətli kağızların qiymətləndirilməsi müvafiq normativ hüquqi aktlara uyğun olaraq qiymətləndirici tərəfindən həyata keçirilir.

**Maddə 27. İnvestisiya fondunun aidiyyəti şəxsi**

27.1. Bu Qanunun məqsədləri üçün investisiya fondunun aidiyyəti şəxsləri aşağıdakılardır:

27.1.1. səhmdar investisiya fondunun müşahidə şurasının və icra orqanının üzvü;

27.1.2. investisiya fondunun struktur bölməsinin (filial, departament, şöbə və s.) rəhbəri;

27.1.3. bu Qanunun 27.1.1-ci və 27.1.2-ci maddələrində göstərilən şəxslərin qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının

valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları);

27.1.4. investisiya fondunda 10 faiz və daha çox səhmlərə (paya) birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxs;

27.1.5. nizamnamə kapitalında ən azı 20 faiz iştirak payı investisiya fonduna məxsus olan hüquqi şəxs;

27.1.6. idarəçinin idarəçiliyində olan digər fondlar;

27.1.7. bu Qanunun 27.1.4-cü və 27.1.5-ci maddələrində göstərilən hüquqi şəxslərdə ən azı 20 faiz səhmlərə (paya) malik olan hər hansı şəxs;

27.1.8. bu Qanunun 27.1.4-cü, 27.1.5-ci və 27.1.6-cı maddələrində göstərilən hüquqi şəxslərin müşahidə şurasının və icra orqanlarının rəhbərləri.

27.2. İnvestisiya fondunun aidiyyəti şəxsləri ilə münasibətlərdə aşağıdakı tələblərə riayət edilməlidir:

27.2.1. investisiya fondunun aidiyyəti şəxsləri investisiya fondunun depozitarı ola bilməzlər;

27.2.2. investisiya fondunun aidiyyəti şəxsləri eyni zamanda idarəçinin və ya depozitarın müşahidə şurasının və ya icra orqanının üzvü ola bilməzlər;

27.2.3. investisiya fondunun aidiyyəti şəxsləri eyni zamanda investisiya fondunun məsləhətçisi, auditoru, əmlak inzibatçısı və ya idarəçisi ola bilməzlər;

27.2.4. investisiya fondunun bu Qanunun 27.1.1-ci və 27.1.2-ci maddələrində göstərilən aidiyyəti şəxsləri idarəçinin və ya onun idarəçiliyində olan digər investisiya fonlarının müşahidə şurasının və ya icra orqanının üzvü ola bilməzlər;

27.2.5. səhmdar investisiya fondunun buraxdığı səhmlərlə bağlanılan əqdlər istisna olmaqla, səhmdar investisiya fondu ilə onun aidiyyəti şəxsləri arasında fondun aktivlərinin dəyərinin 10 faizindən artıq məbləğdə əqdlərin bağlanılmasına yalnız müşahidə şurasının bütün üzvlərinin razılığı ilə yol verilir;

27.2.6. paylı investisiya fondunun buraxdığı paylarla bağlanılan əqdlər istisna olmaqla, paylı investisiya fondu ilə onun idarəçisinin aidiyyəti şəxsləri arasında fondun aktivlərinin dəyərinin 10 faizindən artıq məbləğdə əqdlərin bağlanılmasına yalnız nəzarət orqanının icazəsi ilə yol verilir. Bu halda idarəçi əqdin bağlanılmasına razılıq verilməsi üçün onun mühüm şərtləri barədə məlumatla birlikdə ərizə ilə nəzarət orqanına müraciət edir;

27.2.7. bu Qanunun 27.2.6-cı maddəsində göstərilən əqdlərin bağlanması investorların hüquqlarının müdafiəsi baxımından qeyri-qənaətbəxş hesab edildikdə, qiymətli kağızlar bazarında qiymətlərin kəskin dəyişməsi təhlükəsi yaratdıqda, habelə investisiya fondunun qaydalarına zidd olduğu müəyyənləşdirildikdə nəzarət orqanı onun bağlanmasına icazə verilməsindən imtina edir;

27.2.8. nəzarət orqanı əqdin bağlanılmasına icazənin verilməsinə və ya ondan imtina edilməsinə dair bildirişi idarəçiyə 3 gün ərzində təqdim edir.

## V fəsil

## Səhmdar investisiya fondunda və idarəçidə mühüm iştirak payının əldə edilməsi

### Maddə 28. Səhmdar investisiya fondunda və idarəçidə mühüm iştirak payının əldə edilməsi

28.1. Səhmdar investisiya fondunun nizamnamə kapitalında bir şəxsin iştirak payı 50 faizdən çox ola bilməz.

28.2. İstənilən şəxs səhmdar investisiya fondunun və ya idarəçinin nizamnamə kapitalında mühüm iştirak payını, o cümlədən nizamnamə kapitalındakı mövcud payını mühüm iştirak payına çatdıran əlavə payı, habelə mühüm iştirak payını artıraraq nizamnamə kapitalının 20 faizinə, 33 faizinə, idarəçidə isə həmçinin 50 faizinə çatmasına və ya bu miqdarı keçməsinə gətirib çıxaran iştirak payını yalnız nəzarət orqanının razılığı əsasında əldə edə bilər.

28.3. Səhmdar investisiya fondu, onun idarəçisi və depozitarı hər hansı bir şəxs tərəfindən səhmdar investisiya fondunun nizamnamə kapitalında mühüm iştirak payının əldə edilməsi haqqında xəbər tutduqda, 1 iş günü ərzində bu barədə nəzarət orqanına məlumat verməlidir.

28.4. Hər hansı bir şəxs tərəfindən idarəçinin nizamnamə kapitalında mühüm iştirak payı əldə edildikdə idarəçi və reyestrsaxlayıcısı (olduqda) bu barədə 1 iş günü ərzində nəzarət orqanına məlumat verməlidir.

28.5. Bu Qanunun 28.2-ci maddəsində nəzərdə tutulan mühüm iştirak payının alınması üçün səhmdar investisiya fondu, yaxud idarəçi bu barədə müraciəti və aşağıdakı sənədləri nəzarət orqanına təqdim etməlidir:

28.5.1. alıcı hüquqi şəxs olduqda:

28.5.1.1. dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin və təsis sənədlərinin notariat qaydasında təsdiq edilmiş surəti, son 3 maliyyə ili üzrə, 3

ildən az müddətdə fəaliyyət göstərdikdə isə, bütün fəaliyyət dövrü üzrə kənar auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatlarını və kənar auditorun rəyini əks etdirən müvafiq sənədlər;

28.5.1.2. nəzərdə tutulan iştirak payının əldə olunması barədə onun səlahiyyətli idarəetmə orqanının qərarının təsdiq edilmiş surəti;

28.5.1.3. digər hüquqi şəxslərin kapitalında mühüm iştirak paylarına dair məlumat;

28.5.1.4. hüquqi şəxs olan təsisçilər haqqında məlumatlar, o cümlədən belə təsisçilərin:

28.5.1.4.1. hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında müvafiq sənədin notariat qaydasında təsdiq edilmiş surəti;

28.5.1.4.2. təsis sənədlərinin notariat qaydasında təsdiq edilmiş surəti;

28.5.1.4.3. son 3 maliyyə ili üzrə, 3 ildən az müddətdə fəaliyyət göstərdikdə isə bütün fəaliyyət dövrü üzrə kənar auditor tərəfindən, müvafiq rəy əlavə olunmaqla, təsdiq edilmiş maliyyə hesabatlarını;

28.5.1.4.4. fiziki şəxs olan təsisçilərinin şəxsiyyətlərini təsdiq edən sənədlərin surətləri, iş yerlərini (məşğuliyyət növünü) göstərən məlumatlar və sənədlər, imzaları notariat qaydasında təsdiq edilməklə onların vətəndaş qüsursuzluğuna dair ərizələri, həmin fiziki şəxs əcnəbi olduqda isə yuxarıda göstərilən sənədlərdən əlavə rezidenti olduğu ölkənin bir və ya bir neçə maliyyə təşkilatının müsbət tövsiyəsi;

28.5.1.4.5. təsisçilərin digər hüquqi şəxslərdə mühüm iştirak payları, habelə hər bir hüquqi şəxs olan təsisçi üçün onun nizamnamə kapitalında digər şəxslərin mühüm iştirak payları haqqında məlumatlar;

28.5.1.5. benefisiarlar haqqında məlumat.

28.5.2. alıcı fiziki şəxs olduqda:

28.5.2.1. şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq edilmiş surəti, iş yerini (məşğuliyyət növünü) göstərən məlumatlar və sənədlər, həmin şəxs əcnəbi olduqda isə həm də rezidenti olduğu ölkənin azı bir maliyyə təşkilatının müsbət tövsiyəsi;

28.5.2.2. vətəndaş qüsursuzluğu barədə notariat qaydasında təsdiq edilmiş ərizəsini;

28.5.2.3. həmin şəxsin digər hüquqi şəxslərin kapitalında mühüm iştirak paylarına dair məlumatı.

28.6. Nəzarət orqanı bu Qanunun 28.5-ci maddəsində göstərilən müraciətə 30 iş günü ərzində baxır və müraciət edən səhmdar investisiya fonduna və ya idarəçiyə qəbul etdiyi qərar haqqında əsaslandırılmış bildiriş təqdim edir.

28.7. Bu Qanunun 28.5-ci maddəsində göstərilən sənədlər tam həcmdə təqdim olunmadıqda, yaxud sənədlərdəki məlumatlar tam olmadıqda və ya yanlış olduqda, nəzarət orqanı sənədlərin tam həcmdə təqdim edilməsini və ya dəqiqləşdirilməsini tələb edə bilər.

28.8. Bu Qanunun 28.2-ci maddəsində nəzərdə tutulmuş əqdlər nəzarət orqanının razılığı olmadan bağlandıqda, həmin əqdlər bağlandığı andan etibarsız hesab edilir.

28.9. Mühüm iştirak payının alınması barədə nəzarət orqanı tərəfindən verilmiş razılıqda mühüm iştirak payının alınmasının son müddəti göstərilir.

28.10. Nəzarət orqanı mühüm iştirak paylarının sahibləri və mühüm iştirak payını əldə etmək niyyətində olan şəxslər barəsində digər dövlət orqanlarından məlumat ala bilər. Dövlət orqanları nəzarət orqanının tələbi əsasında məlumatları 15 iş günü müddətində təqdim etməlidirlər.

## VI fəsil

## İnvestisiya fondunun aktivlərinin tərkibi və dəyəri

### Maddə 29. İnvestisiya fondunun aktivlərinin tərkibi

29.1. İnvestisiya fondunun idarəçilikdə olan aktivləri pul vəsaitlərindən, qiymətli kağızlardan və daşınmaz əmlakdan ibarət ola bilər. Daşınmaz əmlak yalnız səhmdar investisiya fondu və qapalı paylı investisiya fondunun aktivlərinin tərkibinə daxil edilə bilər. İnvestisiya fondunun aktivlərinin tərkibinə və strukturuna dair tələblər Nəzarət orqanı tərəfindən qəbul olunmuş normativ hüquqi aktlarla müəyyən edilir.

29.2. İnvestisiya fondunun aktivlərinin tərkibinə aşağıdakıların daxil edilməsi yolverilməzdir:

29.2.1. idarəçisinin idarəçiliyində olan digər investisiya fondlarının buraxdığı səhmləri və ya payları;

29.2.2. idarəçisinin və aidiyyəti şəxslərinin buraxdığı qiymətli kağızlar.

**Maddə 30. İnvestisiya fondunun aktivlərinin dəyərinin hesablanması**

30.1. İnvestisiya fondunun aktivlərinin, xalis aktivlərinin, habelə payın cari dəyərinin və səhmin geri satın alınması qiymətinin hesablanması qaydası bu Qanunla və nəzarət orqanı tərəfindən qəbul edilən normativ hüquqi aktlarla müəyyən edilir.

30.2. Səhmdar investisiya fondu və idarəçi maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq tərtib etməlidirlər.

**Maddə 31. İnvestisiya fondunun fəaliyyəti ilə bağlı mükafatların, xərclərin və xidmət haqlarının ödənilməsi**

31.1. İnvestisiya fondu üzrə idarəçinin mükafat və xərcləri, habelə depozitar, auditor və qiymətləndiricinin xidmət haqları fondun aktivləri hesabına ödənilir. Paylı investisiya fondunu təşkil edən əmlak onun fəaliyyətinin təmin edilməsi ilə bağlı yaranmış borcların ödənilməsinə kifayət etmədiyi halda, həmin borclar üzrə tələblər idarəçinin əmlakına yönəldilə bilər.

31.2. Paylı investisiya fondunun formalaşdırılması müddəti ərzində mükafatlar, xərclər və xidmət haqları idarəçinin hesabına ödənilir. Fondun formalaşdırılması baş tutduqda, ödənilmiş vəsaitlər fondun aktivləri hesabına idarəçiyə qaytarılır.

31.3. İnvestisiya fondunun fəaliyyəti ilə bağlı mükafatların, xərclərin və xidmət haqlarının yuxarı həddi və ödənilməsi qaydası nəzarət orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarla müəyyən edilir.

31.4. İnvestisiya fondunun emissiya prospekti və ya investisiya bəyannaməsi ilə nəzərdə tutulmamış mükafatların, xərclərin və xidmət haqların ödənilməsinə yol verilmir.

## VII fəsil

## İnvestisiya fondu haqqında məlumatların açıqlanması və investisiya fondunun reklamı

**Maddə 32. İnvestisiya fondu haqqında məlumatın açıqlanması**

32.1. Səhmdar investisiya fondu, onun və (və ya) paylı investisiya fondunun idarəçisi tərəfindən səhmlərin (payların) əldə edilməsi və (və ya) geri satın alınmasına dair sifarişlərin qəbulu yerlərində investorlara, səhmdarlara və pay sahiblərinə tanış olmaq üçün aşağıdakılar barədə məlumatlar təqdim edilməlidir:

32.1.1. səhmdar investisiya fondunun nizamnaməsi, investisiya bəyannaməsi, emissiya prospekti və paylı investisiya fondunun qaydaları;

32.1.2. investisiya fondunun aktivlərinin tərkibi, strukturu və dəyəri, investisiya fondunun xalis aktivləri və bu məlumatların müəyyən edildiyi son tarixə bir payın hesablanmış dəyəri;

32.1.3. səhmdar investisiya fondunun və ya idarəçinin ötən maliyyə ili üzrə kənar auditor tərəfindən müvafiq rəy əlavə edilməklə təsdiq olunmuş maliyyə hesabatları;

32.1.4. ötən maliyyə ili üzrə səhmdar investisiya fonduna, idarəçiyə, depozitara, auditora və qiymətləndiriciyə fondun aktivləri hesabına ödənilməli olan mükafatların, xərclərin və xidmət haqlarının həcmi;

32.1.5. səhmdar investisiya fonduna, idarəçiyə, depozitara qarşı son bir il ərzində tətbiq edilmiş sanksiyalar.

**Maddə 33. İnvestisiya fondunun reklamı**

33.1. İdarəçi və ya səhmdar investisiya fondu səhm və payların reklamı zamanı qeyri dəqiq, təhrif edilmiş, habelə investisiya bəyannaməsinə zidd olan məlumatlardan istifadə etməməlidir. İnvestorların qərarlar qəbul etməsi üçün vacib olan məlumatların, o cümlədən risklər barədə məlumatların gizlədilməsinə yol verilmir.

33.2. İdarəçi və ya investisiya fondu reklamda risklər haqqında məlumat verməyə borcludur. Reklam materiallarında aşağıdakılar əks olunmalıdır:

33.2.1. risk haqqında xəbərdarlıq – səhm və payların dəyərinin azalması ehtimalı;

33.2.2. investisiyaların geri alınmaması ehtimalı;

33.2.3. “Əvvəlki nəticələr və gəlirlilik səviyyəsi gələcəkdə əldə ediləcək nəticələr və gəlirlilik səviyyəsinə dair heç bir təminat və zəmanət vermir” xəbərdarlığı.

33.3. Reklam materiallarında aşağıdakılar yol verilməzdir:

33.3.1. investisiya fondunun və idarəçinin investisiya fəaliyyətinin gələcək gəlirliliyi və səmərəliliyi barədə təminatların verilməsi;

33.3.2. idarəçinin investisiya fəaliyyətinin nəticələrinə mühüm təsir edəcək amillər haqqında yanlış, yaxud təhrif edilmiş məlumatların və hesabatların verilməsi;

33.3.3. idarəçinin investisiya fəaliyyətinin nəticələrinin müqayisəsi zamanı gəlirlilik səviyyəsi və xalis aktivlərinin dəyərinə, habelə investisiya bəyannaməsinə əsaslanmayan göstəricilərdən istifadə edilməsi;

33.3.4. investisiyaların risksiz olmasına təminatların verilməsi;

33.3.5. investisiya fondunun və idarəçinin idarəetmə orqanlarının üzvlərinin təcrübəsi və bacarığı barədə həqiqətə uyğun olmayan və ya təsdiq olunmamış məlumatların verilməsi.

33.4. İdarəçi səhmdar investisiya fondu, yaxud payların və səhmlərin satışını həyata keçirən peşəkar iştirakçı investorlara risklər haqqında xəbərdarlıq sənədini təqdim edir və investorlara bu sənədlə tanış olub imzaladıqdan sonra payların və ya səhmlərin satışını həyata keçirir.

33.5. İdarəçi və ya səhmdar investisiya fondu payların və ya səhmlərin satışını həyata keçirən zaman, risklər haqqında xəbərdarlıq sənədi investorlar tərəfindən imzalanmadığı təqdirdə, investorlara vurulan zərərə görə məsuliyyət daşıyır.

33.6. Risklər haqqında xəbərdarlıq sənədinə dair tələblər nəzarət orqanı tərəfindən müəyyən edilir.

33.7. İnvestisiya fondu və ya idarəçi, həmçinin onların reklamını həyata keçirən qurumlar nəzarət orqanının tələblərinə əsasən reklam və satış materiallarını həmin orqana təqdim etməlidirlər.

33.8. Reklam materialları qanunvericiliyin tələblərinə cavab vermədiyi təqdirdə, nəzarət orqanı onların yayılmasını qadağan edə və ya aşkar edilmiş nöqsanlar aradan qaldırılanadək müvəqqəti dayandıra bilər.

## VIII fəsil

## Səhmdar investisiya fondu və aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərin lisenziyalaşdırılması

### Maddə 34. Lisenziyalaşdırmaya dair ümumi tələblər

34.1. Azərbaycan Respublikası ərazisində səhmdar investisiya fondu və ya aktivlərin idarə edilməsi fəaliyyətləri ilə yalnız bu Qanuna və digər qanunvericilik aktlarına uyğun olaraq lisenziyaya malik olan hüquqi şəxslər məşğul ola bilərlər.

34.2. Səhmdar investisiya fondu və aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərə lisenziyanın verilməsi və ləğv edilməsi bu Qanunla və digər normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada nəzarət orqanı tərəfindən həyata keçirilir.

34.3. Səhmdar investisiya fondu və aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərə lisenziyalar müddətsiz verilir. Lisenziyadan yalnız onları almış şəxs tərəfindən istifadə edilə bilər və üçüncü şəxslərə ötürülə bilməz. İnvestisiya fondu və ya aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərə verilmiş lisenziyalar nəzarət orqanı tərəfindən verildiyi gündən qüvvəyə minir.

34.4. Səhmdar investisiya fondu və aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərə lisenziyaların verilməsi üçün qanunvericiliklə müəyyən edilmiş miqdarda və qaydada dövlət rüsumu ödənilir.

34.5. Səhmdar investisiya fondunun və idarəçinin nizamnamə kapitalının minimum məbləği nəzarət orqanı tərəfindən müəyyən edilən tələblərə cavab verməlidir.

34.6. Siyahısı nəzarət orqanı tərəfindən müəyyən edilən offşor zonalarda qeydiyyata alınmış və ya təsisçiləri, mühüm iştirak payının sahibləri və benefisiarları belə zonalarda qeydiyyata alınmış şəxslər səhmdar investisiya fondunun və idarəçinin təsisçiləri və ya səhmdarları ola bilməzlər. Qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçməmiş, aidiyyəti tənzimləmə və nəzarət orqanları tərəfindən tənzimləmə və nəzarət prosesləri ilə əhatə olunmayan investisiya fondlarının və ya idarəçilərin fəaliyyətinə yol verilmir.

34.7. İdarəçinin ixtisas şəhadətnaməsinə malik olan əməkdaşlarının sayına dair tələblər nəzarət orqanı tərəfindən müəyyən edilir.

**Maddə 35. Səhmdar investisiya fondlarının və aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərin lisenziyalaşdırılması**

35.1. Səhmdar investisiya fondlarının və aktivlərin idarə edilməsi üzrə müvafiq növ fəaliyyətlərə lisenziyaların alınması üçün müraciətə nəzarət orqanı tərəfindən iki mərhələdə baxılır:

35.1.1. təsisçilər və ya qanunvericiliyə müvafiq qaydada vəkil edilmiş şəxs (şəxslər) tərəfindən lisenziyanın alınması üçün ilkin müraciətə baxılması;

35.1.2. səhmdar investisiya fondu və idarəçi hüquqi şəxs kimi dövlət qeydiyyatına alındıqdan sonra lisenziyanın alınması üçün yekun müraciətə baxılması.

**Maddə 36. Səhmdar investisiya fondu və ya aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərə lisenziyaların alınması üçün ilkin müraciət zamanı təqdim edilən sənədlər**

36.1. Lisenziya verilməsi üçün ilkin müraciət olunarkən aşağıdakı sənədlər təqdim edilməlidir:

36.1.1. səhmdar investisiya fondu və ya aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərə lisenziyanın alınması üçün ərizə;

36.1.2. təsis haqqında qərarın və nizamnamənin surəti;

36.1.3. hüquqi şəxs olan təsisçilər haqqında məlumatlar, o cümlədən belə təsisçilərin:

36.1.3.1. hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında sənədin notariat qaydasında təsdiq edilmiş surəti;

36.1.3.2. təsis sənədlərinin notariat qaydasında təsdiq edilmiş surəti;

36.1.3.3. son 3 maliyyə ili üzrə, 3 ildən az müddətdə fəaliyyət göstərdikdə isə bütün fəaliyyət dövrü üzrə kənar auditor tərəfindən müvafiq rəy əlavə olunmaqla, təsdiq edilmiş maliyyə hesabatları;

36.1.3.4. nəzərdə tutulan iştirak payının əldə edilməsi barədə idarəetmə orqanının qərarının müvafiq qaydada təsdiq edilmiş surəti;

36.1.3.5. maliyyə xidmətləri ilə bağlı mövcud olan lisenziyaların notariat qaydasında təsdiq edilmiş surəti;

36.1.3.6. aidiyyəti şəxsləri barədə məlumatlar;

36.1.3.7. qanunvericiliklə tələb olunduğu halda fəaliyyət göstərdiyi sahə üzrə maliyyə sabitliyi normativlərinə uyğunluğunu təsdiq edən müvafiq tənzimləyici orqanın arayışı;

36.1.4. fiziki şəxs olan təsisçilərin şəxsiyyətini təsdiq edən sənədin surəti və iş yeri (olduqda) haqqında məlumatları əks etdirən arayış;

36.1.5. fiziki şəxs olan təsisçi əcnəbi olduqda – bu Qanunun 36.1.4-cü maddəsində nəzərdə tutulmuş sənədlərdən əlavə, rezidenti olduğu ölkənin azı iki maliyyə təşkilatının müsbət tövsiyələri;

36.1.6. vəkil edilmiş şəxsin təsisçilər adından müraciət etmək səlahiyyətini təsdiqləyən, qanunvericilikdə nəzərdə tutulmuş qaydada təsdiq edilmiş sənəd;

36.1.7. təsisçilərin digər hüquqi şəxslərdə mühüm iştirak payları, habelə hər bir hüquqi şəxs olan təsisçi üçün onun nizamnamə kapitalında digər şəxslərin mühüm iştirak payları haqqında məlumatlar;

36.1.8. ən azı növbəti 3 il üçün aşağıdakı məlumatları əks etdirən biznes-plan:

36.1.8.1. təşkilati tədbirlər planı və bu məqsədlə ayrılan vəsaitin əsaslandırılmış məbləği;

36.1.8.2. fondun formalaşdırılması mərhələsi üçün nəzərdə tutulmuş maliyyə vəsaitlərinin məbləği;

36.1.8.3. istifadə ediləcək ofis sahəsi, kompüter və telekommunikasiya sistemləri, elektron mühasibat və digər kompüter proqramları haqqında məlumat;

36.1.9. səhmdar investisiya fondunun aktivlərinin idarə edilməsini həyata keçirəcək idarəçi barədə məlumat;

36.1.10. adı və ünvanı göstərilməklə, səhmdar investisiya fondunun depozitarı haqqında məlumat;

36.1.11. auditi həyata keçirəcək kənar auditor barədə məlumat (adı, müvafiq lisenziyanı verən orqanın adı, qeydiyyat nömrəsi və verilmə tarixi);

36.1.12. fəaliyyətin həyata keçirilməsi, o cümlədən, aktivlərin idarə edilməsi üzrə daxili nəzarət mexanizmləri haqqında məlumat;

36.1.13. təsisçilərin, rəhbər vəzifələrə təyin olunması nəzərdə tutulan şəxslərin siyahısı və onların imzaları notariat qaydasında təsdiq edilməklə, vətəndaş qüsursuzluğu barədə ərizələri;

36.1.14. rəhbər vəzifələrə təyin olunan şəxslərin təhsili və iş təcrübəsi barədə müvafiq sənədlər və məlumatlar;

36.1.15. benefisiarları haqqında məlumatlar.

36.2. Lisenziya verilməsi üçün ilkin müraciətlə bağlı xarici təsisçinin xarici ölkənin müvafiq dövlət orqanı tərəfindən verilmiş sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilməlidir.

### Maddə 37. Səhmdar investisiya fondu və ya aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərə lisenziyaların alınması üçün ilkin müraciətə baxılması

37.1. Nəzarət orqanı lisenziyanın verilməsi üçün ilkin müraciətlə bağlı sənədlərə təqdim edildiyi tarixdən 60 gün ərzində baxır.

37.2. Nəzarət orqanı baxılmaq üçün təqdim edilmiş sənədlərdə səhvlər və ya çatışmazlıqlar müəyyən etdikdə, bu barədə müraciət edənlərə 15 təqvim günü müddətində bildiriş göndərir və onlara bu səhvləri və ya çatışmazlıqları aradan qaldırmağı təklif edir. Bu tələb 10 iş günü ərzində yerinə yetirilməlidir. Tələbin təqdim edilməsi bu Qanunun 37.1-ci maddəsində nəzərdə tutulan müddətin axımını dayandırır. Sənədlərin təqdim edilməsindən sonra 15 gün ərzində nəzarət orqanı müraciət edənlərə yazılı bildiriş göndərmədikdə, sənədlər baxılmaq üçün qəbul olunmuş hesab edilir.

37.3. Nəzarət orqanı təqdim edilən sənədlərdəki məlumatların yoxlanılması məqsədi ilə digər dövlət orqanlarından məlumat ala bilər. Dövlət orqanları nəzarət orqanının tələb etdiyi məlumatı 15 gün ərzində verməlidirlər.

37.4. Nəzarət orqanı lisenziya verilməsi üçün ilkin müraciəti aşağıdakı hallarda rədd edir:

37.4.1. bu Qanunun 36-ci maddəsində nəzərdə tutulmuş sənədlər tam həcmdə təqdim edilmədikdə və ya onlarda bu Qanunun tələblərinə uyğunsuzluqlar aşkar olunduqda, habelə sənədlərdəki məlumatlar 37.2-ci maddəyə uyğun olaraq tələb olunan qaydada tamamlanmadıqda;

37.4.2. bu Qanunun 34.5-ci və 41.1-41.4-cü maddələrinin tələbləri təmin olunmadıqda;

37.4.3. biznes-plan gələcək fəaliyyət zamanı maliyyə sabitliyinin və ödəmə qabiliyyətinin, investisiya fondunun və idarəçinin normal fəaliyyət göstərməsinin təmin edilməsi, investorların hüquqlarının pozulması təhlükəsi müəyyən edildikdə.

37.5. Nəzarət orqanı lisenziya verilməsi üçün ilkin müraciətə baxılmasının nəticəsi barədə müraciət edənə bu Qanunun 37.1-ci maddəsində göstərilən müddətdə yazılı bildiriş göndərir. İlkin müraciət rədd edildikdə, bildirişdə imtinanın əsasları göstərilməlidir.

37.6. Nəzarət orqanının ilkin müraciətin rədd edilməsi ilə bağlı qərarından qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə şikayət edilə bilər.

37.7. Lisenziya verilməsi üçün ilkin müraciətinə nəzarət orqanı tərəfindən müsbət cavab verildikdən sonra təsis edilən hüquqi şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatına alınır. Nəzarət orqanının lisenziya verilməsi üçün ilkin müraciətə müsbət cavab verdiyi tarixdən etibarən 90 gün müddətində lisenziya almaq üçün yekun müraciət təqdim olunmalıdır.

**Maddə 38. Səhmdar investisiya fondu və ya aktivlərin idarəedilməsi üzrə fəaliyyətlərə lisenziyaların alınması üçün yekun müraciət zamanı təqdim olunan sənədlər**

38.1. Səhmdar investisiya fondu və ya aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərə lisenziyanın alınması üçün yekun müraciət zamanı nəzarət orqanına aşağıdakıları təqdim edilir:

38.1.1. adını, təşkilati-hüquqi formasını, olduğu yeri, hesablaşma hesabının nömrəsini və müvafiq bankın adını, lisenziya verilməsi üçün müraciət olunan fəaliyyət növünün adını əks etdirən yekun müraciət;

38.1.2. dövlət qeydiyyatı haqqında sənədin notariat qaydasında təsdiq edilmiş surəti;

38.1.3. nizamnamənin notariat qaydasında təsdiq edilmiş surəti;

38.1.4. ilkin müraciətdə təqdim edilmiş məlumatlarda dəyişikliklər baş verərsə bu barədə arayış;

38.1.5. rəhbər vəzifələrə təyin edilən şəxslərin bu Qanunun tələblərinə uyğunluğunu təsdiq edən məlumatlar, o cümlədən təhsili və iş təcrübəsi barədə müvafiq sənədlərin surətləri;

38.1.6. aktivlərin idarə edilməsini həyata keçirən əməkdaşların ixtisas şəhadətnamələri;

38.1.7. fəaliyyət göstərəcəyi ofis sahəsindən istifadə hüququnu təsdiq edən sənədin surəti;

38.1.8. hüquqi şəxsin təşkilati və idarəetmə strukturu, bölmələri və onların funksiyaları, tabeliliyi, hesabatların təqdim edilmə qaydaları;

38.1.9. kompüter və telekommunikasiya sistemləri, elektron mühasibat və digər kompüter proqramları haqqında məlumat;

38.1.10. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.

38.2. Səhmdar investisiya fondu fəaliyyətinə lisenziyanın alınması üçün müraciət edən hüquqi şəxs bu Qanunun 38.1-ci maddəsində nəzərdə tutulmuş sənədlərlə yanaşı aşağıdakı sənədləri təqdim etməlidir:

38.2.1 səhmdar investisiya fondunun aktivlərinin idarə edilməsi barədə idarəçi ilə bağlanmış müqavilənin surətini;

38.2.2 səhmdar investisiya fondunun investisiya bəyannaməsini.

**Maddə 39. Səhmdar investisiya fonduna və ya aktivlərin idarəedilməsi üzrə fəaliyyətlərə lisenziyaların alınması üçün yekun müraciətə baxılması**

39.1. Nəzarət orqanı lisenziyanın alınması üçün təqdim edilmiş sənədlərə təqdim edildiyi tarixdən 30 gün ərzində baxır.

39.2. Sənədlər tam həcmdə təqdim olunmadıqda, yaxud sənədlərdəki məlumatlar tam olmadıqda və ya yanlış olduqda nəzarət orqanı sənədlərin tam həcmdə təqdim edilməsini və ya dəqiqləşdirilməsini tələb edə bilər. Bu tələb 10 iş günü ərzində yerinə yetirilməlidir. Tələbin təqdim edilməsi bu Qanunun 40.1-ci maddəsində nəzərdə tutulan müddətin axımını dayandırır.

39.3. Nəzarət orqanı təqdim olunan sənədlərdəki məlumatların yoxlanılması məqsədi ilə digər dövlət orqanlarından məlumat ala bilər. Dövlət orqanları nəzarət orqanının tələb etdiyi məlumatı 15 gün müddətində verməlidirlər.

39.4. Nəzarət orqanı lisenziyanın verilməsi və ya lisenziyanın verilməsindən imtina olunması barədə bu Qanunun 40.1-ci maddəsində göstərilən müddət ərzində imtinanın əsasları göstərilməklə müraciət edənə yazılı bildiriş göndərir.

39.5. Nəzarət orqanı lisenziyanın verilməsindən aşağıdakı hallarda imtina edir:

39.5.1. bu Qanunun 39-cu maddəsində nəzərdə tutulmuş sənədlər tam həcmdə təqdim edilmədikdə və ya onlarda bu Qanunun tələblərinə uyğunsuzluqlar aşkar olunduqda, habelə sənədlərdəki məlumatlar 40.2-ci maddəyə uyğun olaraq tələb olunan qaydada tamamlanmadıqda;

39.5.2. bu Qanunun 34.4-cü, 34.5-ci və 40.1-40.4-cü maddələrinin tələblərinə uyğunsuzluqlar aşkar olunduqda;

39.5.3. bu Qanunun 37.4-cü maddəsində nəzərdə tutulmuş əsaslardan hər hansı biri aşkar edildikdə;

39.5.4. dövlət qeydiyyatının təsisçilərdən asılı olmayan səbəblərə görə yubadılması halları istisna olmaqla, lisenziya verilməsi üçün bu Qanunun 37.7.-ci maddəsində müəyyən edilmiş müddətdə nəzarət orqanına yekun müraciət etmədikdə.

**Maddə 40. Səhmdar investisiya fondunun və idarəçinin mühüm iştirak payının sahiblərinə və rəhbər vəzifələrini tutan şəxslərə dair tələblər**

40.1. Səhmdar investisiya fondunun və idarəçinin mühüm iştirak payının sahibləri aşağıdakı tələblərə cavab verməlidirlər:

40.1.1. vətəndaş qüsursuzluğu tələblərinə uyğun gəlməlidir;

40.1.2. qanunvericilikdə tələb olunduğu halda fəaliyyət göstərdiyi sahə üzrə maliyyə sabitliyi normativlərinə uyğun olmalıdır (hüquqi şəxslər üçün).

40.2. Səhmdar investisiya fondunun və idarəçinin müşahidə şurasının, icra orqanının və təftiş komissiyasının və ya audit komitəsinin, habelə daxili audit xidmətinin üzvü aşağıdakı tələblərə cavab verməlidir:

40.2.1. ali təhsili olmalıdır;

40.2.2. maliyyə vəziyyətinin pisləşməsi üzündən və ya müflis elan olunaraq, məcburi ləğv edilmiş hüquqi şəxsin ləğvi haqqında qərarın qəbul edildiyi tarixdən ən azı əvvəlki bir il ərzində həmin hüquqi şəxsin müşahidə şurasının, icra orqanının, təftiş komissiyasının və ya daxili audit xidmətinin üzvü olmamalıdır;

40.2.3. tutduğu vəzifədən peşə uyğunsuzluğuna görə azad edilmiş olmamalıdır;

40.2.4. vətəndaş qüsursuzluğu tələblərinə cavab verməlidir;

40.2.5. səhmdar investisiya fondunun və idarəçinin müşahidə şurasının, icra orqanının üzvü maliyyə xidmətləri sektorunda ən azı 3 il, təftiş komissiyasının və ya audit komitəsinin üzvü isə audit fəaliyyəti, yaxud əlaqədar sahələrdə azı 4 il iş təcrübəsinə malik olmalıdır.

40.3. İdarəçinin müşahidə şurasının, icra orqanının və təftiş komissiyasının və ya daxili audit orqanının üzvü eyni zamanda digər idarəçidə və ya depozitarda hər hansı vəzifə tuta və ya xidmət göstərə bilməz.

40.4. Səhmdar investisiya fondunun və idarəçinin icra orqanının üzvləri nəzarət orqanı tərəfindən müəyyən edilmiş qaydada attestasiyadan keçməlidir.

40.5. Səhmdar investisiya fondu və idarəçi rəhbər vəzifə tutan şəxslərin tutduğu vəzifələrdən azad edilməsi barədə 3 iş günü ərzində nəzarət orqanına məlumat verməlidirlər.

40.6. Səhmdar investisiya fondu və idarəçi rəhbər vəzifəsinə nəzərdə tutulan bütün təyinatlar və dəyişikliklər barəsində nəzarət orqanına yazılı bildiriş göndərməlidirlər. Bildirişə bu Qanunun 39.1.5-ci maddəsində nəzərdə tutulan məlumatlar və sənədlər əlavə olunur.

40.7. Nəzarət orqanı səhmdar investisiya fondunda və idarəçidə rəhbər vəzifəyə təyinatla bağlı müraciətin səhmdar investisiya fondu və ya idarəçi tərəfindən təqdim edildiyi tarixdən 30 iş günü müddətində bildirişə dair öz münasibətini bildirməli və attestasiyanın vaxtını təyin etməlidir.

40.8. Səhmdar investisiya fondu və idarəçi rəhbər vəzifələrə yeni təyinatları yalnız nəzarət orqanının razılığı əsasında həyata keçirə bilərlər.

**Maddə 41. Səhmdar investisiya fondu və ya aktivlərin idarə edilməsi fəaliyyətləri üzrə lisenziyaların ləğvi**

41.1. Səhmdar investisiya fondu və aktivlərin idarə edilməsi fəaliyyətləri üzrə lisenziya aşağıdakı əsaslar olduqda nəzarət orqanı tərəfindən ləğv edilə bilər:

41.1.1 səhmdar investisiya fondunun və ya idarəçinin ali idarəetmə orqanının qərarı əsasında səhmdar investisiya fondu və ya idarəçi ləğv edildikdə;

41.1.2 səhmdar investisiya fondu və ya idarəçi müflis elan edildikdə;

41.1.3 lisenziya alınarkən təqdim edilmiş sənədlərdə yanlış və ya qeyri dürüst məlumatlar aşkar olunduqda;

41.1.4 səhmdar investisiya fondu və ya idarəçi lisenziya qüvvəyə mindiyi tarixdən 12 ay müddətində fəaliyyətə başlamadıqda;

41.1.5 səhmdar investisiya fondu və ya idarəçi tərəfindən mövcud qanunvericiliyin tələbləri əhəmiyyətli dərəcədə pozulduqda və həmin pozuntuların aradan qaldırılmasına dair nəzarət orqanının icrası məcburi olan göstərişləri yerinə yetirilmədikdə;

41.1.6 səhmdar investisiya fondunun və ya idarəçinin xalis aktivlərinin miqdarı nəzarət orqanı tərəfindən müəyyən edilmiş xalis aktivlərin minimum miqdarından az olduqda;

41.1.7 səhmdar investisiya fondu və ya idarəçi tərəfindən nəzarət orqanına qəsdən yanlış və ya qeyri-dürüst hesabat və məlumatlar təqdim edildikdə;

41.1.8 səhmdar investisiya fondu və ya idarəçi lisenziyada nəzərdə tutulmayan fəaliyyət növlərini həyata keçirdikdə;

41.1.9 İnvestisiya fondunun və ya idarəçinin yenidən təşkili nəzarət orqanının razılığı olmadan həyata keçirildikdə;

41.1.10 səhmdar investisiya fondu və ya idarəçi nəzarət orqanı tərəfindən bu Qanunun və qiymətli kağızlar bazarını tənzimləyən qanunvericiliyin tətbiqi ilə bağlı verilən icrası məcburi olan göstərişləri icra etmədikdə.

41.2. İnvestisiya fondu tərəfindən “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərin pozulması hallarının aradan qaldırılmasına dair nəzarət orqanının icrası məcburi olan göstərişləri yerinə yetirilmədikdə, həmçinin belə pozuntu halları il ərzində iki dəfədən artıq təkrar olunduqda, səhmdar investisiya fondu və ya aktivlərin idarəedilməsi üzrə fəaliyyətlərə verilmiş lisenziya ləğv edilir.

41.3. Səhmdar investisiya fondunun idarəçisinin lisenziyası ləğv olunduqda onun idarəçiliyində olan fonda əmlak inzibatçısı təyin edilir. Bu halda səhmdar investiya fondu ən geci 90 gün ərzində yeni idarəçi ilə müqavilə bağlamalıdır. Göstərilən müddət ərzində yeni idarəçi ilə müqavilə bağlamaq mümkün

olmadıqda, səhmdar investisiya fondu bu Qanunun 45-cı maddəsinin tələblərinə uyğun olaraq ləğvetmə proseduruna başlamalıdır.

41.4. Nəzarət orqanı səhmdar investisiya fondunun və ya idarəçinin lisenziyasının ləğvi barədə qərar qəbul etdikdə, bu barədə məlumatı lisenziyası ləğv olunmuş səhmdar investisiya fonduna və ya idarəçiyə, onların depozitarına və vergi orqanlarına dərhal göndərməli və kütləvi informasiya vasitələrində dərc etdirməlidir.

41.5. Səhmdar investisiya fondu və ya aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərə verilmiş lisenziya ləğv edildikdə səhmdar investisiya fondu və ya idarəçi bu Qanunun 45-ci maddəsinin tələblərinə uyğun olaraq ləğv edilir.

**Maddə 42. Xarici investisiya fondunun və ya idarəçinin nümayəndəliklərinin fəaliyyətinə icazənin verilməsi**

42.1. Xarici investisiya fondunun və ya idarəçinin nümayəndəliyi Azərbaycan Respublikasında nəzarət orqanının icazəsi əsasında fəaliyyət göstərə bilər.

42.2. Xarici investisiya fondu və ya idarəçi Azərbaycan Respublikasında nümayəndəliyinin fəaliyyətinə icazənin alınması üçün nəzarət orqanına qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilmiş aşağıdakı sənədləri əlavə etməklə, yazılı surətdə müraciət etməlidir:

42.2.1. xarici investisiya fondunun və ya idarəçinin nizamnaməsinin, dövlət qeydiyyatı haqqında sənədin və nümayəndəlik açmaq barədə səlahiyyətli orqanının qərarının surətini;

42.2.2. xarici investisiya fondunun və ya idarəçinin təşkilati strukturu və idarəetmə orqanları haqqında məlumatı;

42.2.3. müraciət edilən tarixə xarici investisiya fondunda və ya idarəçidə mühüm iştirak paylarının sahiblərinin onlara məxsus payların miqdarı göstərilməklə siyahısını;

42.2.4. xarici investisiya fondunun və ya idarəçinin son üç maliyyə ili üçün, əgər bu müddət 3 ildən azdırsa, bütün fəaliyyət müddəti üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı və auditor rəyi;

42.2.5. nümayəndəliyin əsasnaməsini;

42.2.6. nümayəndəliyin rəhbər vəzifələrinə təyin edilən şəxslərin təhsili və iş təcrübəsi barədə sənədlərin surətləri, habelə imzaları notariat qaydasında təsdiq edilməklə, onların vətəndaş qüsursuzluğu barədə ərizələri;

42.2.7. xarici investisiya fondunun və ya idarəçinin yerləşdiyi ölkədə malik olduğu lisenziyaların və icazələrin surətləri;

42.2.8. xarici investisiya fondunun və ya idarəçinin rezidenti olduğu ölkənin müvafiq tənzimləyici orqanının nümayəndəliyin açılmasına etirazının olmaması barədə rəyi;

42.2.9. nümayəndəliyin kommersiya strategiyasını, təşkilati strukturunu, o cümlədən ilk 3 il üçün maliyyə proqnozlarını müəyyənləşdirən biznes-planı.

42.3. Nəzarət orqanı sənədlərə onların təqdim edildiyi tarixdən 60 gün ərzində baxır.

42.4. Nəzarət orqanı baxılmaq üçün ona təqdim edilmiş sənədlərdə səhvlər və ya çatışmazlıqlar müəyyən etdikdə, bu barədə müraciət edənlərə 15 təqvim günü müddətində bildiriş göndərir və onların aradan qaldırılmasını təklif edir. Nəzarət orqanı həmin müddətdə müraciət edənlərə yazılı bildiriş göndərmədikdə, sənədlər baxılmaq üçün qəbul edilmiş hesab edilir.

42.5. Nəzarət orqanı xarici investisiya fondunun və ya idarəçinin Azərbaycan Respublikasında nümayəndəliyinin fəaliyyətinə icazə verilməsindən aşağıdakı hallarda imtina edir:

42.5.1. bu Qanunun 42.2-ci maddəsində göstərilən sənədlər tam həcmdə təqdim edilmədikdə və ya onlarda bu Qanunun tələblərinə uyğunsuzluq aşkar edildikdə, habelə sənədlərdəki məlumatlar 42.4-cü maddəya uyğun olaraq tələb olunan qaydada tamamlanmadıqda;

42.5.2. bu Qanunun 34.6 və 40.1-40.3-cü maddələrinin tələblərinə uyğunsuzluq aşkar edildikdə;

42.5.3. nümayəndəliyin açılması üçün müraciət etmiş xarici investisiya fondu və ya idarəçi öz ölkəsində müvafiq lisenziyaya və ya icazəyə malik olmadıqda, habelə həmin ölkənin qanunvericiliyi investisiya fondu və ya aktivlərin idarə edilməsi fəaliyyəti üzərində Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulduğuna bərabər və ya ondan daha ciddi nəzarət rejimi müəyyən etmədikdə.

42.6. Nəzarət orqanı icazənin verilməsi və ya bundan imtina olunması barədə bu Qanunun 42.3-cü maddəsində göstərilən müddət ərzində müraciət edənə əsaslandırılmış yazılı bildiriş göndərir.

42.7. Nəzarət orqanının icazənin verilməsindən imtina edilməsi ilə bağlı qərarından qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə şikayət edilə bilər.

**Maddə 43. Xarici investisiya fondunun və ya idarəçinin yerli nümayəndəliklərinin fəaliyyətinə verilmiş icazənin ləğvi**

43.1. Xarici investisiya fondunun və ya idarəçinin nümayəndəliklərinin fəaliyyətinə icazə aşağıdakı hallarda nəzarət orqanı tərəfindən ləğv edilə bilər:

43.1.1. investisiya fondunun və ya idarəçinin ali idarəetmə orqanının qərarına əsasən;

43.1.2. səhmdar investisiya fondu və idarəçi müflis elan edildikdə;

43.1.3. icazənin alınması üçün təqdim edilmiş sənədlərdə yanlış məlumatlar aşkar edildikdə;

43.1.4. icazənin qüvvəyə mindiyi tarixdən 12 ay müddətində nümayəndəlik fəaliyyətə başlamadıqda;

43.1.5. nümayəndəlik tərəfindən nəzarət orqanına qəsdən yanlış hesabat və məlumatlar təqdim edildikdə;

43.1.6. nümayəndəlik nəzarət orqanı tərəfindən bu Qanunun və qiymətli kağızlar bazarını tənzimləyən digər normativ hüquqi aktların tətbiqi ilə bağlı verilən icrası məcburi olan göstərişləri yerinə yetirmədikdə.

43.2. İnvestisiya fondu və ya idarəçi icazənin ləğv edilməsi barədə nəzarət orqanına müraciət etdikdə, bunun səbəblərini bildirməlidir. Nəzarət orqanı icazənin ləğv edilməsi ilə bağlı müraciətə 30 gün ərzində baxır və müvafiq qərar qəbul edir.

43.3. Nəzarət orqanı icazənin ləğv edilməsi haqqında qərar qəbul etdikdə, bu barədə məlumatı dərhal icazəsi ləğv edilmiş nümayəndəliyə, habelə müvafiq investisiya fonduna, yaxud idarəçiyə göndərməli və kütləvi informasiya vasitələrində dərc etdirməlidir.

## IX fəsil

## İnvestisiya fondunun yenidən təşkili, ləğvi və müflis elan edilməsi

**Maddə 44. Səhmdar investisiya fondunun yenidən təşkili**

44.1. Səhmdar investisiya fondunun yenidən təşkili bu Qanunun tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

44.2. Səhmdar investisiya fondunun birləşmə, bölünmə və ayrılma şəklində yenidən təşkilinə yalnız həmin əməliyyatlar yeni səhmdar investisiya fondunun (fondlarının) yaradılması ilə nəticələndiyi hallarda yol verilir.

44.3. Səhmdar investisiya fondunun qoşulma şəklində yenidən təşkilinə digər səhmdar investisiya fondunun (fondlarının) yenidən təşkil ediləcək səhmdar investisiya fonduna qoşulması şərti ilə yol verilir.

44.4. Səhmdar investisiya fondunun səhmdar investisiya fondu fəaliyyətinə lisenziyası olmayan hüquqi şəxslə, həmçinin investisiya strategiyası və sahələri əhəmiyyətli dərəcədə fərqlənən investisiya fondları ilə birləşməsinə və ya ona qoşulmasına yol verilmir.

44.5. Səhmdar investisiya fondunun çevrilmə (təşkilati-hüquqi formasının dəyişməsi) şəklində yenidən təşkilinə yol verilmir.

44.6. Yenidən təşkili barədə qərar qəbul edildikdə, səhmdar investisiya fondu həmin qərarın bir nüsxəsini yeni təşkil ediləcək səhmdar investisiya fondunun nizamnaməsinin nüsxəsi ilə birlikdə, qərarın qəbul edildiyi gündən 3 iş günündən gec olmayan müddətdə nəzarət orqanına təqdim etməlidir.

44.7. Nəzarət orqanı səhmdar investisiya fondunun yenidən təşkili zamanı bu Qanunun 44.2-44.5-ci maddələrinin tələbləri pozulduqda, fond bazarında qiymətlərin kəskin dəyişməsi təhlükəsi yarandıqda, habelə investisiya fondunun maliyyə sabitliyi və investorların hüquqlarının pozulmasına səbəb olduqda belə yenidən təşkilə icazə verilməsindən imtina edir.

44.8. Nəzarət orqanı səhmdar investisiya fondunun yenidən təşkil edilməsi ilə bağlı qərarın və müvafiq sənədlərin təqdim edildiyi tarixdən 30 iş günü ərzində baxır və yenidən təşkilə icazə verilməsinə və ya bundan imtina olunmasına dair qərar qəbul edir.

44.9. Səhmdar investisiya fondunun birləşmə, bölünmə və ayrılma şəklində yenidən təşkili nəticəsində yeni yaradılan səhmdar investisiya fondu bu Qanunun 38-cu maddəsinə uyğun olaraq sənədləri təqdim edib lisenziya aldıqdan sonra fəaliyyətə başlaya bilər.

**Maddə 45. Səhmdar investisiya fondunun ləğvi**

45.1. Səhmdar investisiya fondunun ləğvi bu Qanunun və Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələblərinə uyğun olaraq həyata keçirilir.

45.2. Səhmdar investisiya fondu aşağıdakı hallarda ləğv edilir:

45.2.1. səhmdar investisiya fondunun ümumi yığıncağı fondun ləğvi barədə müvafiq qərar qəbul etdikdə;

45.2.2. bu Qanunun 41.1.2-41.1.10-cu və ya 41.2-ci maddələrində göstərilən əsaslardan biri üzrə səhmdar investisiya fonduna verilmiş lisenziya ləğv edildikdə.

45.3. Səhmdar investisiya fondunun ümumi yığıncağının fondun ləğvi barədə qərarı ilə səhmdar investisiya fondunun ləğvetmə komissiyası yaradılır. Ləğvetmə barədə qərar, qəbul edildiyi tarixədək ən geci 3 ay əvvəlki dövrə təsadüf edən kənar auditor tərəfindən təsdiqlənmiş maliyyə hesabatı, həmçinin ləğvetmə komissiyasının tərkibi barədə məlumatla birlikdə bir iş günü ərzində nəzarət orqanına təqdim edilir.

45.4. Səhmdar investisiya fondunun ləğvetmə komissiyasına idarəçinin nümayəndəsi daxil edilir. Nəzarət orqanı könüllü qaydada ləğv edilən səhmdar investisiya fondunun ləğvetmə komissiyasına öz nümayəndəsini daxil edə bilər.

45.5. Səhmdar investisiya fondunun ləğvetmə komissiyası nəzarət orqanına onun tələb etdiyi zəruri sənədləri və məlumatları təqdim etməli və nəzarət orqanının səlahiyyətli əməkdaşlarının səhmdar investisiya fondunun binasına daxil olmasına, ləğvetmə ilə bağlı sənədlərlə tanış olmasına şərait yaratmalıdır.

45.6. Səhmdar investisiya fondu bu Qanunun 45.2.1-ci maddəsində göstərilən əsasla ləğv edildikdə, ləğvetmə Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş qaydada həyata keçirilir. Ləğvetmə komissiyası səhmdar investisiya fondunun ləğvi barədə qərarın qəbul edildiyi tarixdən ən geci 90 gün müddətində fondun təsdiq edilmiş ləğvetmə planını nəzarət orqanına təqdim etməlidir. Nəzarət orqanı səhmdar investisiya fondunun ləğvetmə planına təqdim edildiyi tarixdən 30 təqvim günü müddətində baxır və onu qeyri-məqbul hesab etdikdə, yaxud çatışmazlıqlar aşkar etdikdə, ləğvetmə komissiyasından onların aradan qaldırılmasını tələb edir. Tələb edilən düzəlişlər 10 gün müddətində aparılmalıdır.

45.7. Nəzarət orqanı ləğvetmə komissiyasının səhmdar investisiya fondunun ləğvini qanunvericiliklə müəyyən edilmiş qaydada təmin etmədiyini və səhmdar investisiya fondu tərəfindən bu Qanunun 45.4-cü, 45.5-ci və 45.6-ci maddələrinə riayət edilmədiyini müəyyənləşdirdikdə bu Qanuna uyğun olaraq səhmdar investisiya fondunun məcburi ləğvi üçün müvafiq tədbirlər görə bilər.

45.8. Səhmdarların ümumi yığıncağının qərarı, yaxud müflis elan edilməsi əsasında ləğvi halları istisna olunmaqla, nəzarət orqanı səhmdar investisiya fondunun lisenziyasını bu Qanunun 41.1.2-41.1.10-cu və 41.2-ci maddələrinə uyğun olaraq ləğv etdikdə, həmçinin 45.7-ci maddəsində nəzərdə tutulmuş hallarda

onun məcburi ləğvi və əmlak inzibatçısının təyin edilməsi barədə məhkəməyə müraciət edir.

45.9. Məhkəmənin qərarı ilə təyin edilmiş əmlak inzibatçısı səhmdar investisiya fondunun ləğvi prosesinin başlanması və əmlak inzibatçısının təyin olunması haqqında məlumatı dərhal kütləvi informasiya vasitələrində dərc etdirir, səhmdar investisiya fondunun idarəçisinə, müşahidə şurasına və icra orqanına müvafiq bildirişlər göndərir.

45.10. Səhmdar investisiya fondunun məcburi ləğvi və əmlak inzibatçısının təyin edilməsi haqqında məhkəmə qərarının qəbul edildiyi andan:

45.10.1. səhmdar investisiya fondunun idarə olunması üzrə bütün səlahiyyətlər, o cümlədən onun səhmdarlarının ümumi yığıncağının səlahiyyətləri əmlak inzibatçısına keçir;

45.10.2. səhmdar investisiya fondunun vəzifəli şəxslərinin və ya səhmdarlarının onun adından etdikləri hərəkətlər hüquqi qüvvəyə malik olmur.

45.11. Ləğv edilən səhmdar investisiya fondunun sənədlərinin və əmlakının onun vəzifəli şəxslərindən məhkəmə tərəfindən təyin edilmiş əmlak inzibatçısına təhvil verilməsi aktını məhkəmə təsdiq edir.

45.12. Məcburi qaydada ləğv edilən səhmdar investisiya fondunun kreditorlarının siyahısı, həmçinin ləğvetmə planı əmlak inzibatçısının təqdimatı ilə məhkəmə tərəfindən təsdiq edilir.

45.13. Səhmdar investisiya fondunun məcburi ləğvi dövründə əmlak inzibatçısı nəzarət orqanının tələbi ilə zəruri sənədləri və informasiyanı təqdim etməlidir. Əmlak inzibatçısının öz funksiyalarını lazımınca yerinə yetirməməsi faktı aşkar olunduqda, nəzarət orqanının müraciəti əsasında məhkəmə əmlak inzibatçısının başqa şəxslə əvəz edilməsi barədə qərar qəbul edə bilər.

45.14. Ləğv edilən səhmdar investisiya fondunun kreditorlarının tələblərinin ödənilməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

45.15. Ləğv edilən səhmdar investisiya fondunun qiymətli kağızlardan ibarət əmlakı fond birjası, digər əmlakı isə açıq hərracların keçirilməsi vasitəsilə satılmalıdır. Səhmdar investisiya fondunun ləğvi ilə bağlı əmlakın satışı nəticəsində əldə olunmuş pul vəsaitləri, qanunvericiliyə uyğun olaraq fondun bütün öhdəlikləri ödənildikdən sonra səhmdarlar arasında onlara məxsus səhmlərə mütənasib miqdarda bölüşdürülür.

45.16. Ləğvetmə prosesi dövründə səhmdar investisiya fondunun adında "ləğv edilməkdə olan" sözləri göstərilməlidir.

### Maddə 46. Səhmdar investisiya fondunun müflis və iflas elan edilməsi

46.1. Səhmdar investisiya fondu bu Qanunun tələbləri nəzərə alınmaqla, "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada müflis elan edilir.

46.2. Səhmdar investisiya fondu barəsində iflas prosesinə aşağıdakı hallarda başlanıla bilər:

46.2.1. səhmdar investisiya fondunun xalis aktivlərinin miqdarı altı ay ərzində nəzarət orqanı tərəfindən müəyyən edilmiş xalis aktivlərin minimum miqdarından 25 faiz və aşağı olduqda;

46.2.2. səhmdar investisiya fondu icra vaxtı çatmış öhdəliklərini tam yerinə yetirməyə və ya həyata keçirməli olduğu ödənişləri vaxtı çatdıqca aparmağa qadir olmadıqda.

46.3. Səhmdar investisiya fondunun müflis elan edilməsi məhkəmənin müvafiq qərarı ilə həyata keçirilir. Səhmdar investisiya fondunun müflis elan edilməsinin məhkəmədənkənar proseduruna yol verilmir.

46.4. Səhmdar investisiya fondunun müflis elan edilməsi ilə bağlı ərizə ilə məhkəməyə nəzarət orqanı və ya səhmdarların ümumi yığıncağının qərarı əsasında səhmdar investisiya fondunun özü, habelə onun kreditorları müraciət edə bilər. Hər bir halda, nəzarət orqanı səhmdar investisiya fondunun müflis elan edilməsi ilə bağlı məhkəmə işlərinə cəlb edilməli və onun rəyi nəzərə alınmalıdır.

46.5. Nəzarət orqanı səhmdar investisiya fondunun müflis elan edilməsi ilə bağlı ərizəyə bu Qanunun 46.2.1-ci maddəsində göstərilən əsasların mövcudluğunu təsdiq edən sənəd və hesabatları əlavə etməlidir.

46.6. Səhmdar investisiya fondunun kreditorları məhkəməyə müvafiq ərizə ilə birlikdə özlərinin tələb hüquqlarını təsdiq edən sənədləri, habelə bu Qanunun 46.2.2-ci maddəsi ilə müəyyən edilmiş əsasların mövcudluğunu təsdiq edən sənədləri təqdim etməlidir.

46.7. İcra vaxtı çatmış öhdəliklərin ümumi məbləği səhmdar investisiya fondunun xalis aktivlərinin 10%-dən az hissəsini təşkil etdikdə, məhkəmə müflisləşmə prosedurunun başlanması barədə tələbi rədd edə bilər. Bu halda kreditorların səhmdar investisiya fonduna qarşı iddiaları məhkəmədə əmlak mübahisələrinə baxılmasının ümumi qaydalarına uyğun həll edilir.

46.8. Səhmdar investisiya fondu hər hansı müflisləşmə (iflas) haqqında işin başlanması barədə nəzarət orqanına dərhal məlumat verməlidir.

46.9. Nəzarət orqanı səhmdar investisiya fondunun müflisləşmə (iflas) haqqında işin başlanması barədə məlumat aldığı gün səhmdar investisiya fondunun lisenziyasının müvəqqəti dayandırılması barədə qərar qəbul edir.

46.10. Səhmdar investisiya fondunun iflası haqqında iddia ərizəsi nəzarət orqanı tərəfindən verildikdə, lisenziyanın dayandırılması haqqında qərarın surəti həmin ərizəyə əlavə edilir.

46.11. Müflisləşmə (iflas) haqqında işə baxılmasına başlandığı gündən, səhmdar investisiya fondunun banklarda və depozitarda olan hesabları dondurulur və səhmlərinin yerləşdirilməsi məhkəmənin qərarı ilə dayandırılır.

46.12. Nəzarət orqanı səhmdar investisiya fondunun müflis elan olunması məqamınadək müvəqqəti əmlak inzibatçısının təyin edilməsi üçün məhkəməyə ərizə ilə müraciət edir. Nəzarət orqanının nümayəndəsi müvəqqəti əmlak inzibatçısı ola bilər. Bu halda əmlak inzibatçısına heç bir haqq və mükafat ödənilmir.

46.13. Məhkəmə müvəqqəti əmlak inzibatçısının təyin edilməsi barədə ərizəyə qanunvericilikdə müəyyən edilmiş qaydada və müddətdə baxır.

46.14. Səhmdar investisiya fondu iflas proseduruna başlanmasına dair ərizənin təmin olunması haqqında məhkəmənin qərarına əsasən müflis elan edilir və ona qanunvericiliklə müəyyən edilmiş qaydada əmlak inzibatçısı təyin edilir. Səhmdar investisiya fondunun müflis elan olunması haqqında məhkəmə qərarı qəbul edildiyi andan səhmdar investisiya fondunun iflas proseduruna başlanılır.

46.15. Səhmdar investisiya fondunun iflas prosesinə başlanılmasına dair ərizənin təmin olunması haqqında məhkəmənin qərarından qanunvericiliyə müvafiq surətdə şikayət verilə bilər.

46.16. Əmlak inzibatçısı səhmdar investisiya fondunun müflisləşmə (iflas) prosesinin başlanması və əmlak inzibatçısının təyin olunması haqqında məlumatı dərhal kütləvi informasiya vasitələrində dərc etdirir, səhmdar investisiya fondunun idarəçisinə, müşahidə şurasına, icra orqanına müvafiq bildirişlər göndərir.

46.17. Məhkəmə qərarının qəbul edildiyi andan:

46.17.1. səhmdar investisiya fondunun idarə olunması üzrə bütün səlahiyyətlər, o cümlədən səhmdar investisiya fondunun səhmdarlarının ümumi yığıncağının səlahiyyətləri əmlak inzibatçısına keçir;

46.17.2. səhmdar investisiya fondunun vəzifəli şəxslərinin və ya səhmdarlarının onun adından etdikləri hərəkətlər hüquqi qüvvəyə malik olmur.

46.18. Müflis elan edilən səhmdar investisiya fondunun sənədlərinin və əmlakının onların vəzifəli şəxslərindən məhkəmə tərəfindən təyin edilmiş əmlak inzibatçısına təhvil verilməsi aktını məhkəmə təsdiq edir.

46.19. Səhmdar investisiya fondunun müflisləşmə (iflas) prosesi dövründə əmlak inzibatçısı nəzarət orqanının tələbi ilə zəruri sənədləri və informasiyanı təqdim etməlidir. Əmlak inzibatçısının öz funksiyalarını lazımınca yerinə yetirməməsi faktı aşkar edildikdə, nəzarət orqanının müraciəti ilə məhkəmə əmlak inzibatçısının başqa şəxslə əvəz edilməsi barədə qərar qəbul edə bilər.

46.20. Əmlak inzibatçısı təyin olunduqdan sonra iki həftə ərzində barəsində iflas proseduru başlanmış səhmdar investisiya fondu ilə bağlı nəzarət orqanına və məhkəməyə hesabat təqdim edir. Hesabatda aşağıdakılar göstərilməlidir:

46.20.1. əmlak inzibatçısının görməli olduğu işlərə dair məlumatı əks etdirən fəaliyyət planı;

46.20.2. mühasibat balansı, o cümlədən balans dəyəri üzrə aktivlərin siyahısı;

46.20.3. kreditorların tələblərinin ilkin reyestri;

46.20.4. əmlak inzibatçısına ödənilən haqq və xərclər barədə məlumat;

46.20.5. səhmdar investisiya fondu və ya idarəçinin hər hansı qanuna zidd hərəkəti və ya bağladıqları əqdlər barəsində müfəssəl məlumat;

46.20.6. əmlak inzibatçısının qənaətinə görə, lazım ola bilən digər məlumat.

46.21. Əmlak inzibatçısı sonrakı hesabatlarını bir aylıq fasilə ilə və ya məhkəmənin müəyyən etdiyi qaydada təqdim edir. Əmlak inzibatçısının hesabatları özündə bu Qanunun 46.20.1 - 46.20.4-cü və 46.20.6-cı maddələrində göstərilən məlumatları əks etdirməlidir.

46.22. Əmlak inzibatçısı barəsində iflas prosedurları başlamış səhmdar investisiya fonduna qarşı tələbləri məhkəmənin iflas prosesinin başlanmasına dair qərarının qəbul edildiyi tarixdən 60 gün müddətində qeydə alır. Zəruri hallarda məhkəmə bu müddəti 30 gündən artıq olmamaqla uzada bilər.

46.23. Müflisləşmə (ləğv) prosedurlarına başlanılmış səhmdar investisiya fondunun kreditorlarının siyahısı, kreditorlarının tələblərinin ödənilməsi növbəliliyi, əmlak inzibatçısının nəzarət orqanının rəyi əlavə edilmiş təqdimatı ilə məhkəmə tərəfindən təsdiq edilir.

46.24. Səhmdar investisiya fondunun müflis elan olunmasına dair məhkəmə qərarının qəbul edilməsi tarixindən ən geci 90 gün ərzində əmlak inzibatçısı müvafiq ləğvetmə planını hazırlayıb təsdiq olunmaq üçün məhkəməyə təqdim edir.

Məhkəmə maraqlı şəxslərin alternativ ləğvetmə planı təqdim etmələrinə icazə verilməsi barədə qərar qəbul edə bilər.

46.25. Müflis elan edilən səhmdar investisiya fondunun qiymətli kağızlardan ibarət əmlakı fond birjası, digər əmlakı isə açıq hərracların keçirilməsi vasitəsilə satılmalıdır. Əmlakın satışından əldə edilən pul vəsaitləri qanunvericiliyə uyğun olaraq səhmdar investisiya fondunun bütün öhdəlikləri ödənildikdən sonra səhmdarlar arasında, onlara məxsus səhmlərə mütənasib miqdarda bölüşdürülür.

46.26. Əmlak inzibatçısı təsdiq edilmiş ləğvetmə planının icrasını başa çatdırdıqdan sonra bu barədə hesabatı məhkəməyə təqdim edir. Məhkəmə təqdim olunmuş hesabatı təsdiq etdikdə səhmdar investisiya fondunun ləğvetməsi başa çatmış hesab edilir və həmin səhmdar investisiya fondu investisiya fondlarının, habelə hüquqi şəxslərin dövlət reyestrlərindən çıxarılır. Məhkəmənin ləğvetmənin başa çatması ilə bağlı qərarı əsasında əmlak inzibatçısı vəzifəsindən azad edilir. Bu qərardan sonra əmlak inzibatçısı səhmdar investisiya fondunun sənədlərini qanunvericiliklə müəyyən edilmiş qaydada arxivə təhvil verməklə öz işini başa çatdırır.

**Maddə 47. Paylı investisiya fondunun yenidən təşkili və ləğvi**

47.1. Paylı investisiya fondu yalnız qapalıdan interval və ya açıq, yaxud intervaldan açıq formaya çevrilməsi yolu ilə yenidən təşkil edilə bilər. Paylı investisiya fondu yenidən təşkil edildikdə idarəçi bu barədə qərarı fondun idarəetmə qaydalarına edilmiş əlavə və dəyişikliklərlə birlikdə qeydiyyata alınması və investisiya fondlarının dövlət reyestrində dəyişikliklərin edilməsi barədə nəzarət orqanına müraciət etməlidir. Müraciətə bu Qanunun 15.4- və 15.5-ci maddələri ilə müəyyən edilmiş qaydada baxılır.

47.2. Paylı investisiya fondunun yenidən təşkili onun investisiya fondlarının dövlət reyestrində dövlət qeydiyyatına alındıqdan sonra qüvvəyə minir.

47.3. Paylı investisiya fondu aşağıdakı hallarda ləğv edilir:

47.3.1. açıq və ya interval paylı investisiya fondunun idarəçisinin qərarı əsasında;

47.3.2. fondun qaydalarında paylı investisiya fondunun fəaliyyət müddəti müəyyən edilmişdirsə, həmin müddət başa çatdıqda;

47.3.3. fondun xalis aktivlərinin həcmi paylı investisiya fondları üçün qanunvericiliklə müəyyən edilmiş minimum miqdardan az olduqda və həmin uyğunsuzluq yarandığı gündən altı ay ərzində aradan qaldırılmadıqda;

47.3.4. idarəçinin və ya depozitarın lisenziyaları ləğv olunduqda, habelə onlar fondun idarə edilməsindən, fondun aktivlərinin saxlanması və uçotunun

aparılmasından imtina etdikdə - müvafiq qərarın qəbul olunduğu tarixdən 30 gün ərzində fonda yeni idarəçi və ya depozitar cəlb olunmadıqda;

47.3.5. qapalı paylı investisiya fondunun pay sahiblərinin ümumi yığıncağı tərəfindən fondun ləğvi haqqında qərar qəbul edildikdə.

47.4. Paylı investisiya fondu ləğv olunarkən idarəçinin və depozitarın nümayəndələrindən ibarət olan ləğvetmə komissiyası yaradılır. Nəzarət orqanı paylı investisiya fondunun ləğv olunmasına nəzarət məqsədi ilə öz nümayəndəsini fondun ləğvetmə komissiyasına daxil edə bilər. Nəzarət orqanı fondun qanunvericiliyə uyğun qaydada ləğv olunması üzrə icrası məcburi olan göstərişlər verə bilər.

47.5. Paylı investisiya fondunun ləğvi idarəçinin və ya depozitarın lisenziyasının dayandırılması və ya ləğvi ilə bağlı olduqda, onların nümayəndələri fondun ləğvetmə komissiyasına daxil edilmir. İdarəçinin və depozitarın lisenziyaları eyni zamanda ləğv olunduqda, fondun ləğvi mərkəzi depozitar və ya nəzarət orqanının müəyyən etdiyi depozitar tərəfindən icra olunur.

47.6. Paylı investisiya fondunun ləğvi barədə qərarın qəbul edildiyi tarixdən etibarən 5 iş günü ərzində ləğvetmə komissiyası aşağıdakıları edir:

47.6.1. qəbul olunmuş qərar barədə nəzarət orqanına məlumat verir;

47.6.2. fondun ləğvi və müvafiq ləğvetmə proseduralarının həyata keçirilməsi şərtləri barədə pay sahiblərini, depozitarı, kreditorları və fondun aktivləri ilə bağlı icra olunmamış əqdlər üzrə kontragentləri fondun qaydalarında göstərilmiş kütləvi informasiya vasitələrində dərc etməklə məlumatlandırır;

47.6.3. fondun payları ilə bütün əməliyyatların qərarda göstərilmiş tarixdən etibarən dayandırılması haqqında depozitara göstəriş verir.

47.7. Kreditorların paylı investisiya fondunun aktivləri hesabına ödəniləcək tələblərinin irəli sürülməsi müddəti fondun ləğv edilməsi barədə məlumatın dərc edildiyi gündən başlayaraq, ən azı 60 gün təşkil edir.

47.8. Ləğvetmə komissiyası kreditorların paylı investisiya fondunun aktivləri hesabına ödəniləcək tələblərinin irəli sürülməsi müddəti başa çatdıqdan sonra və onlarla hesablaşmaların aparılmasından əvvəl depozitarla birgə fondun balansını təsdiq edir və nəzarət orqanına təqdim edir.

47.9. Ləğvetmə komissiyası bu Qanuna və fondun qaydalarına müvafiq olaraq fondun aktivlərinin satışını, fondun kreditorları ilə hesablaşmaların aparılmasını, ləğvetmə ilə bağlı xərclərin ödənilməsini və ləğvetmədən sonra qalan pul vəsaitlərinin pay sahibləri arasında bölüşdürülməsini təmin edir.

47.10. Paylı investisiya fondunun ləğvi zamanı fondu təşkil edən və onun aktivlərinin satışı nəticəsində əldə olunan pul vəsaitləri aşağıdakı növbəliliklə ödənilir:

47.10.1. ləğvetmə komissiyasına - ləğvetmə ilə bağlı xərclər;

47.10.2. fondun ləğvi üçün əsasın yarandığı günədək payların geri satın alınması ilə bağlı sifarişləri qəbul olunmuş şəxslərə ödənilməli olan pul vəsaitləri;

47.10.3. tələbləri fondun aktivləri hesabına ödənilməli olan üçüncü şəxslərə fondun ləğvi barədə qərarın qəbul edildiyi tarixədək hesablanmış pul vəsaitləri;

47.10.4. pay sahiblərinə - yuxarıdakı hesablaşmalar aparıldıqdan sonra qalan və onların mülkiyyətindəki payların miqdarına mütənasib olan pul vəsaitləri;

47.10.5. idarəçiyə - fondun ləğvi barədə qərarın qəbul edildiyi tarixədək və həmin gündən sonrakı müddətə hesablanmış xidmət haqqı (idarəçinin lisenziyasının ləğv olunması ilə bağlı fondun ləğvi halları istisna olmaqla), habelə depozitara, auditora və qiymətləndiriciyə (olduqda) - fondun ləğvi barədə qərarın qəbul edildiyi tarixindən sonrakı müddətə hesablanmış xidmət haqları.

47.11. Paylı investisiya fondunun ləğvi ilə bağlı xərclər fondun aktivlərinin satışı nəticəsində əldə edilən pul vəsaitlərinin 5 faizindən çox olmayan məbləğdə ödənilir.

47.12. Paylı investisiya fondunun qiymətli kağızlardan ibarət əmlakı fond birjası, digər əmlakı isə açıq hərracların keçirilməsi vasitəsilə satılmalıdır. Əmlakın satışından əldə olunmuş pul vəsaitləri qanunvericiliyə uyğun olaraq paylı investisiya fondunun bütün öhdəlikləri ödənildikdən sonra pay sahibləri arasında onlara məxsus paylara mütənasib miqdarda bölüşdürülür.

47.13. Paylı investisiya fondunun ləğvetmə komissiyası müvafiq hesablaşmaların aparılması başa çatdıqdan sonra 5 iş günü ərzində nəzarət orqanına fondun ləğvi barədə məlumatı, habelə fondun bütün aktivlərinin bölüşdürülməsi və pay sahiblərinin reyestrinə xitam verilməsi barədə depozitarın və reyestrsaxlayıcının bildirişlərini təqdim edir. Nəzarət orqanı təqdim olunmuş məlumatlar əsasında investisiya fondlarının dövlət reyestrində fondun ləğvi ilə əlaqədar müvafiq qeyd aparır.

## X fəsil

## İnvestisiya fondlarının fəaliyyətinin dövlət tənzimlənməsi və nəzarəti

### Maddə 48. İnvestisiya fondlarının fəaliyyətinin dövlət tənzimlənməsi və nəzarəti

48.1. İnvestisiya fondlarının fəaliyyətinin dövlət tənzimlənməsi və nəzarəti məqsədi ilə aşağıdakılar həyata keçirilir:

48.1.1. səhmdar investisiya fondu və aktivlərin idarə edilməsi üzrə fəaliyyətlərə lisenziya verilir və qanunvericiliklə müəyyən edilmiş hallarda verilmiş lisenziyalar ləğv edilir;

48.1.2. bu Qanun və digər qanunvericilik aktları ilə nəzərdə tutulmuş qaydada və hallarda investisiya fondlarının, idarəçinin və depozitarın fəaliyyətinin tənzimlənməsi üzrə normativ hüquqi aktlar qəbul edilir;

48.1.3. investisiya fondlarının dövlət reyestri aparılır;

48.1.4. investisiya fondlarında pay sahiblərinin reyestrinin təşkili və aparılması qaydaları müəyyən edilir;

48.1.5. investisiya fondlarının və idarəçinin hesabatlarına dair tələblər, habelə onların təqdim edilməsi və açıqlanması qaydaları müəyyən edilir;

48.1.6. səhmdar investisiya fondu və ya idarəçinin icra orqanlarının üzvlərinin, aktivlərin idarə edilməsini həyata keçirən əməkdaşlarının attestasiyasına dair tələblər və attestasiya qaydaları müəyyən edilir və attestasiya keçirilir;

48.1.7. səhmdar investisiya fondunun investisiya bəyannaməsi, ona əlavə və dəyişikliklər qeydiyyata alınır;

48.1.8. paylı investisiya fondunun idarə edilməsi qaydaları, həmin qaydalara əlavə və dəyişikliklər qeydiyyata alınır;

48.1.9. bu Qanunla müəyyən edilmiş hallarda investisiya fond paylarının alqı-satqısının və geri satın alınmasının dayandırılmasına dair qərar qəbul edilir;

48.1.10. investorların hüquqlarının müdafiəsi, habelə investisiya fondlarının fəaliyyətinə nəzarət məqsədi ilə investisiya fondlarından, idarəçidən və depozitardan hesabatlar alınır, zəruri məlumat və sənədlər tələb edilir, bu Qanunla müəyyən edilmiş qaydada yoxlamalar keçirilir;

48.1.11. investisiya fondu və aktivlərin idarə edilməsi ilə bağlı qanunvericiliyin tələblərinin pozulması halları ilə bağlı şikayətlərə baxılır;

48.1.12. səhmdar investisiya fondları, idarəçilər və depozitarlar tərəfindən bu Qanuna, digər qanunvericilik aktlarına, nizamnamə və ya paylı investisiya fondunun idarə edilməsi haqqında müqaviləyə əməl edilməsinə nəzarət edilir, onların pozulması halları aşkar edildikdə həmin pozuntuların aradan qaldırılması üçün icrası məcburi göstərişlər verilir;

48.1.13. investorların hüquqlarının qorunmasına və ya qiymətli kağızlar bazarının təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş icrası məcburi göstərişlər verilir və onların icrasına nəzarət edilir;

48.1.14. investisiya fondlarının fəaliyyətinə dair qanunvericiliyin tələblərini pozan şəxslər inzibati məsuliyyətə cəlb edilir, barələrində inzibati tənbeh tədbirləri tətbiq edilir;

48.1.15. bu Qanunla müəyyən edilmiş qaydada lisenziya almadan investisiya fondu fəaliyyəti və aktivlərin idarə edilməsi fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin fəaliyyətlərinin dayandırılması və qadağan edilməsi üçün məhkəməyə, yaxud müvafiq hüquq mühafizə orqanlarına müraciət edilir;

48.1.16. bu Qanunla müəyyən edilmiş hallarda investisiya fondunun məhkəmə qaydasında ləğvi tələbi ilə məhkəməyə müraciət olunur;

48.1.17. investisiya fondlarının fəaliyyəti sahəsinə aid qanunvericiliklə müəyyən edilmiş digər vəzifələr həyata keçirilir.

48.2. Dövlət tənzimlənməsi və nəzarəti həyata keçirilərkən nəzarət orqanının vəzifəli şəxsi, onun əməkdaşı, təyin edilmiş əmlak inzibatçısı investisiya fondu fəaliyyəti sahəsində tənzimləmə və nəzarətlə bağlı səlahiyyətlərini, habelə ləğvetmə üzrə funksiyalarını yerinə yetirərkən, qanunazidd olması və qəsdən zərər vurmağa yönəlməsi qanunvericiliyə uyğun qaydada sübuta yetirilməyən hərəkəti (hərəkətsizliyi) nəticəsində yaranan zərərlərə görə məsuliyyət daşımırlar.

**Maddə 49. Yerində yoxlamaların həyata keçirilməsi**

49.1. Nəzarət orqanı səhmdar investisiya fondları, idarəçilər, xarici investisiya fondları və idarəçilərin nümayəndəlikləri və ya depozitarlar tərəfindən bu Qanuna əməl edilməsini, həmçinin investisiya fondlarının maliyyə sabitliyini araşdırmaq məqsədi ilə yerində yoxlamalar keçirir. Yerində yoxlamalar növbəti və növbədən kənar ola bilər.

49.2. Növbəti yerində yoxlamalar iki ildə bir dəfədən az olmayaraq nəzarət orqanının müəyyən etdiyi qrafik üzrə aparılır.

49.3. Növbədən kənar yerində yoxlamalar nəzarət orqanının əsaslandırılmış qərarı ilə həyata keçirilir.

49.4. Yerində yoxlamanın həyata keçirilməsinə dair nəzarət orqanının qərarında aşağıdakılar göstərilməlidir:

49.4.1. yerində yoxlanılması təyin edilən hüquqi şəxsin adı;

49.4.2. yoxlanılacaq fəaliyyət dövrü;

49.4.3. yoxlamanın müddəti, başlanma və başa çatdırılma tarixləri;

49.4.4. yoxlama aparılması tapşırılan yoxlayıcının (yoxlayıcıların) adı, soyadı, atasının adı və nəzarət orqanında tutduğu vəzifə.

49.5. Yerində yoxlama 45 iş gündən çox olmayan müddətə təyin edilir. Yoxlamanın müddəti onun başa çatdırılması üçün kifayət etmədikdə, nəzarət orqanının rəhbərinin qərarı ilə həmin müddət 60 iş gününədək uzadıla bilər.

49.6. Yerində yoxlama zamanı yoxlayıcı (yoxlayıcılar) aşağıdakı hüquqlardan istifadə edir:

49.6.1. yerində yoxlanılması təyin edilən subyektin fəaliyyəti ilə bağlı bütün sənədləri, o cümlədən ilkin uçot sənədlərini, mühasibat uçotu registrlərini, kitablarını, jurnallarını, hesablama texnikasında, mühasibat uçotu proqramlarında və başqa məlumat daşıyıcılarında olan məlumatları yoxlamaq;

49.6.2. zərurət olduqda, yoxlamaya aid olan məsələlərlə bağlı xüsusi bilik və təcrübəyə malik olan ekspert və mütəxəssisləri, o cümlədən tərcüməçiləri müvafiq xidmətlər göstərmələri üçün cəlb etmək;

49.6.3. yoxlanılan subyektdən sənədlərin əslinin təqdim olunmasını tələb etmək, müvafiq sənədlərin surətini götürmək;

49.6.4 aşağıda göstərilən şəxslərə yazılı sorğu verməklə, yoxlamanın aparılması üçün lazım olan sənədləri, məlumatları, rəyləri, izahatları, arayışları əldə etmək:

49.6.4.1. yoxlanılan subyektin rəhbər və adi işçilərinə;

49.6.4.2. yoxlanılan subyektdə mühüm iştirak payına malik olan və ya nizamnamə kapitalında yoxlanılan subyektin mühüm iştirak payı olan şəxslərə;

49.6.4.3. yoxlanılan subyektin depozitarına, auditoruna və qiymətləndiricisinə.

49.7. Yoxlanılan subyekt nəzarət orqanına yoxlamanın aparılmasına kömək etməli, yoxlayıcıların bütün sənədlərlə maneəsiz tanışlığına və məlumat

mənbələrinə daxil olmasına, işçilərinin tələb edilən məlumat, izahat və rəy verməsinə şərait yaratmalıdır;

49.8. Yoxlayıcı kommersiya sirri hesab edilən məlumatları yaymağa görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

49.9. Yoxlayıcı yerində yoxlamanın nəticələrinə dair yoxlama aktı tərtib edir. Yoxlama aktı yoxlanılan subyektin rəhbərliyi ilə müzakirə edilir, yoxlayıcı və yoxlanılan subyektin rəhbər şəxsləri tərəfindən imzalanaraq rəsmiləşdirilir. Yoxlanılan subyektin rəhbərliyi yoxlama aktında aktdakı razılaşmadığı məsələlərlə bağlı qeydlər apara və etirazını əsaslandıran sənədlərə əlavə olunan izahatını nəzarət orqanına təqdim edə bilər.

**Maddə 50. Nəzarət orqanının qərarlarından şikayət**

50.1. Nəzarət orqanının bu Qanunun tətbiqi ilə bağlı qərarlarından və fəaliyyətindən məhkəməyə şikayət edilə bilər.

50.2. Bu Qanunun 50.1-ci maddəsində nəzərdə tutulmuş şikayətin verilməsi nəzarət orqanının bu Qanunun tətbiqi ilə bağlı fəaliyyətini məhdudlaşdırmır.

**Maddə 51. İnvestisiya fondlarının fəaliyyətinə nəzarətin maliyyələşdirilməsi**

51.1. İnvestisiya fondlarının fəaliyyəti sahəsində nəzarət orqanının tənzimləmə və nəzarət funksiyalarının həyata keçirməsi aşağıdakı mənbələrdən maliyyələşdirilir:

51.1.1. dövlət büdcəsinin vəsaitləri;

51.1.2. peşəkar iştirakçılara səhmdar investisiya fondlarının səhmləri və ya paylı investisiya fondlarının payları ilə aparılan hər bir əməliyyat üzrə ödənilən haqqların 0,3 faizi həcmində məcburi ayırmalar.

51.2. Bu Qanunun 51.1.2-ci maddəsində nəzərdə tutulmuş ayırmalar yalnız aşağıdakı məqsədlər üçün istifadə edilə bilər:

51.2.1. nəzarət orqanının tənzimləmə və nəzarət funksiyalarının həyata keçirilməsinə cəlb edilmiş dövlət qulluqçularının maddi həvəsləndirilməsi;

51.2.2. nəzarət orqanının tənzimləmə və nəzarət funksiyalarını həyata keçirməsi üçün maddi-texniki imkanlarının genişləndirilməsi;

51.2.3. nəzarət orqanının tənzimləmə və nəzarət funksiyalarının həyata keçirilməsinə cəlb edilmiş mütəxəssislərinin ixtisasının artırılması, o cümlədən

beynəlxalq konfranslarda, seminarlarda, təlim kurslarında və digər tədbirlərdə iştirakının təmin edilməsi;

51.2.4. investisiya fondu fəaliyyətinin təbliğatı və təşviqatı işlərinin həyata keçirilməsi.

## XI fəsil

## Yekun müddəalar

### Maddə 52. Sənədlərin saxlanması qaydası və müddəti

52.1. Səhmdar investisiya fondu və idarəçi investorlarla bağlanmış və icra edilmiş müqavilələr (əqdlər) üzrə müvafiq sənədlərin, o cümlədən elektron daşıyıcılarda olan məlumatların, habelə fəaliyyətlərini əks etdirən digər sənədlərin, qanunvericiliklə müəyyən edilmiş qaydada və müddət ərzində uçotunu aparmalı və saxlanmasını təmin etməlidirlər.

52.2. Saxlanması tələb olunan sənədlərin siyahısı və onların saxlanma müddətləri arxiv idarələri ilə razılaşdırılmaqla, nəzarət orqanı tərəfindən müəyyən edilir.

### Maddə 53. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması

53.1. İnvestisiya fondu cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı monitorinq olunmalı pul vəsaitləri və digər əməliyyatlar barədə məlumatları maliyyə monitorinq orqanına təqdim edir, özünün daxili nəzarət sistemini hazırlayır və tətbiq edir.

53.2. İnvestisiya fondu qanunla müəyyən edilmiş hallarda və qaydada müştərinin, benefisiarın və səlahiyyətli nümayəndənin eyniləşdirilməsi, habelə onlar barədə əldə olunmuş eyniləşdirilmə məlumatlarının verifikasiyası üçün tədbirlər görməli, məlumatın sənədləşdirilməsi və saxlanılması tələblərinə əməl etməlidir.

53.3. Bu Qanunun 53.1 və 53.2-ci maddələrində göstərilən tələblərdən başqa digər tələblər "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlarla müəyyən edilir.

**Maddə 54. Məsuliyyət**

54.1. Bu Qanunun tələblərini pozan şəxslər müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 55. Qanunun qüvvəyə minməsi**

55.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

55.2. Bu Qanunun qüvvəyə minməsi ilə əlaqədar "İnvestisiya fondları haqqında" 1999-cu il 30 noyabr tarixli 766-İQ nömrəli Azərbaycan Respublikasının Qanunu qüvvədən düşmüş hesab edilir.